Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

28
NOYABR
2019-cu il
№ 211 (4109)
Qiyməti
40 qəpik

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

■ səh. 4 ■

# UKRAYNA, GÜRCÜSTAN VƏ QIRĞIZISTANDAN SONRA AZƏRBAYCANI HƏDƏF SEÇMİŞ «SİYASİ VƏBA» - AZƏRBAYCAN QLOBAL BİR PROSESİ DAYANDIRDI...

Azərbaycan Prezidentinin əlində əvvəllər radikallara dəstək vermiş bəzi beynəlxalq mərkəzlərdən gəlmiş ilginc məlumat...

■ səh. 8 ■

Prezident beş ildən sonra peşə axtarışı ilə üzləşəcək gəncləri xəbərdar etdi...

■ səh. 11 ■

Prezident Azərbaycanda gender bərabərliyinə orijinal milli konseptual baxış tezisi ortaya qoydu...

■ səh. 12 ■

Azərbaycan Xalq Cümhuriyyətinin missioner təzyiqləri altında dəyişdirilmiş ilk dövlət bayrağı...

■ səh. 5 ■

Ermənistanda demoqrafiya böhranı fəlakət həddinə çatır - orduda əsgər qıtlığı problemi kəskinləşir...

■ səh. 9 ■

Əli İnsanova qarşı yeni ictimai qınaq - "Haqq-Ədalət" Partiyası ideyasının əsl müəllifləri kənarda qaldı...

■ səh. 6 ■

Rusiya da Azərbaycanla münasibətlərin inkişafını prioritet istiqamətə çevirir

■ səh. 10 ■

Əli Kərimlinin Tofiq Yaqublu vasitəsilə Müsavatı ələ keçirmək planı... İbrahim İbrahimli Eldəniz Quliyev və Xədicə İsmayılı ifşa etdi

■ səh. 6 ■



■ səh. 8 ■

## BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycana sonadək mane olmuş «dost» ölkə...




Prezident Azərbaycanda əsl müxalifətin olmadığını rəsmən bəyan etdi - «Ölkənin əsl müxalifətə ehtiyacı var»...

■ səh. 2 ■



Xarici səfirliklərin təpiklə qapı açdığı iqtidar - «hakimiyyət şərəfi»...

■ səh. 4 ■

ABŞ Ermənistanda Rusiyanı qəzəbləndirəcək növbəti gediş edir

■ səh. 7 ■

■ səh. 2 ■

"Radikallara xaricdən yardım ona görə bitib ki, onlar müxalifət deyil, cinayətkar dəstədirlər"



■ səh. 3 ■

Heydər Əliyev müstəqilliyin ilk illərində prezident olsaydı - Qarabağ münaqişəsi tarixində uduzduğumuz əsas məqam...



■ səh. 3 ■

O hansı müsəlman ölkələridir - məscidlərə it bağlayan dövləti dəstəkləyən islam ölkə(lər)si...



■ səh. 13 ■

Universitet tələbələrinin siyasi vətənpərvərlik tərbiyəsində hansı problemlər üzə çıxdı - Prezident tövsiyələri...



■ səh. 15 ■

Yas mərasimlərində israfçılıq - problem ictimai gündəmdə...



**Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə mərasim keçirilib. Tədbirdə ölkə başçısı geniş nitq söyləyib. Prezident ölkə daxilində gedən siyasi mübarizənin konturlarından danışıb və sağlam müxalifətin olmadığını bildirib. İlham Əliyev hətta belə müxalifətə hakimiyyətin özünün də ehtiyac duyduğunu deyib:**

# Prezident Azərbaycanda əsl müxalifətin olmadığını rəsmən bəyan etdi - "Ölkənin əsl müxalifətə ehtiyacı var"...

"...Nəyə görə? Xalq istəmədi! Xalq dedi ki, yox, bəsdir, görmüşük sizi, necə ki, hakimiyyət uğrunda mübarizə naminə talamısınız, döymüsünüz, söymüsünüz, öldürmüsünüz, Gəncəni bombalamısınız, vətəndaş müharibəsini başlamısınız, Qarabağı satmısınız, Şuşanı satmısınız, Laçını satmısınız. Sonra da fərari kimi qaçmısınız, prezident Kələkiyə, dövlət katibi Kələkiyə, o birilər isə vəzifələrini dondurdular. Belə də hakimiyyət olar? Belə də qorxaq adamlar olar? Heç adi adam hansı ki, özünü lider hesab etmir, özünə rəva bilməz ki, belə, bu cür biabır olsun. Amma bunların belə utanan üzü yoxdur. Bu yaxınlarda yenə də o mənzərəni hamımız görmüşük, biabırçılıqdır, xəstədilər, dəlidirlər, nədirlər, vallah, deməyə söz tapmıram. Ona görə bu gün müxalifət düşərgəsində boşluq yaranıbdır və bizi istəməyənlər gənclərdən istifadə etmək istəyirlər ki, onları xalqın üstünə qaldırsınlar. Sağlam müxalifət yaradılmalıdır. Dövlətçiliyə sadiq olan, xalqa bağlı olan, doğrudan da təklif verən, hakimiyyəti tənqid edən, amma konstruktiv təklif verən, yol göstərən. Ancaq biz sevinərik əgər belə müxalifət yaranarsa. Doğrudan da bizim işimizə kömək olar. Biz hər şeyi indi öz üzərimizə götürmüşük, bəlkə də hansısa alternativ yanaşma, yaxud da ki, mövqe kömək edə bilər. Amma yoxdur və yaxın üfüqlərdə də görünmür".

Göründüyü kimi, ölkə başçısı ölkədə, faktiki olaraq, konstruktiv müxalifətin olmadığını diqqətə çatdırır. Amma siyasi arenada kifayət qədər özlərini konstruktiv müxalifət sayan qüvvə mövcuddur. Onların bu irada münasibəti necədir?

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, cənab Prezidentin daxili siyasi mübarizənin elementləri ilə bağlı səsləndirdiyi təkliflər çox zəruridir: "Prezident əsaslandırılmış şəkildə izah etdi ki, müxalifət dövlətin idarə olunmasında vacib element sayılır. Ancaq Prezidentin görmək istədiyi müxalifət sağlam müxalifətdir. Burada heç də elə təəssürat yaranmasın ki, sağlam deyəndə tənqiddən uzaq olan, sakit müxalifət nəzərdə tutulur. Xeyr, ölkə başçısının özü də qeyd etdi ki, dövlətin inkişafı ilə bağlı sağlam tənqidlər səsləndirən, konstruktiv təkliflər verən təsisatların olması zəruridir. Bizdə radikal müxalifət mövcuddur. Onları cəmiyyətin heç bir təbəqəsi qəbul etmir. Ölkə başçısı onların yerini doldura biləcək konstruktiv müxalifətin olmasını görmür. Bu səbəbdən də ortaya ədalətli yanaşma qoyur. Cənab İlham Əliyev tamamilə doğru vurğuladı ki, belə institutların formalaşmasının bütün cəmiyyətə faydası dəyər".




Özünü konstruktiv müxalifət partiyası sayan, parlamentdə təmsil olunan Milli Dirçəliş Hərəkatı Partiyasının sədr müavini Elşən Manafov qəzetimizə açıqlamasında bildirdi ki, görünür, bu məsələyə dövlət başçısının öz fərqli münasibəti var: "Bu onu göstərir ki, özünü konstruktiv kimi göstərən, parlamentdə təmsil olunan partiyaların heç də həmısının ictimai rəyə lazımi səviyyədə təsiri yoxdur. Mən belə deyərdim ki, onların fəaliyyəti cənab Prezidentin görmək istədiyi səviyyədə deyil. Prezident doğru olaraq qeyd etdi ki, köklü ölkələrdə müxalifətin özünəməxsus yeri olur. İqtidar taleyüklü məsələlərdə məsuliyyəti müxalifətlə bölüşə bilir. Prezidentin çıxışında bu məqama da toxunulub. Bəli, ölkə başçısı qeyd etdi ki, yetərincə güclü imkanlara sahib olan, konstruktiv təkliflərlə çıxış edən müxalifətin olmasını istəyirlər. Görünür, ölkə başçısı belə müxalifəti siyasi spektrdə görmür. Yeri gəlmişkən qeyd edim ki, ötən il baş tutmuş prezident seçkilərindən sonra ölkə başçısı seçkilərdə iştirak etmiş müxalif partiyaların hamısına öz təşəkkürünü bildirdi. Qeyd edim ki, bizim partiyanın sədri Fərəc bəy də həmin seçkilərdə prezidentliyə namizəd kimi iştirak edib. Ölkədə müxalif partiyaların gücünün artması ölkənin siyasi sistemində olan müəyyən boşluqların doldurulmasına müsbət impuls verə bilər. Düşünürəm ki, bunu ölkədə keçiriləcək növbəti parlament seçkiləri təmin edə bilər. Həmin seçkilərdə proporsional seçki sisteminin bərpa olunması partiyaların cəmiyyətdəki rolunu artıra bilər. Hazırda qanunvericilik buna imkan vermir. Hesab edirəm ki, ölkə başçısı belə bir qanunvericilik təşəbbüsü ilə çıxış edib həmin seçki sisteminin bərpasına nail ola bilər. Onda siyasi mübarizə də aktiv məcraya düşər və partiyalar daha da güclənər".

***Məhəmmədəli QƏRİBLİ***

**Prezident İlham Əliyev BDU-nun 100 illiyində müstəqillik və ondan əvvəlki dövrün bəzi vacib məsələlərinə yeni elmi və siyasi baxış tezisləri ortaya qoydu.**

# Aydın Quliyev: "Radikallara xaricdən yardım ona görə bitib ki, onlar müxalifət deyil, cinayətkar dəstədirlər"



Bunu "Trend"ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Onun sözlərinə görə, dövlət başçısı çıxışında tarixçi alimlər, siyasətçilər, dövlət məmurları və gələcəyin fəal vətəndaşlarına çevrilmək istəyən gənc tələbələrə çox maraqlı düşüncə materialları verdi: "Müstəqillik tariximizin indiyədək yanından ötəri keçilmiş bəzi prinsipial faktları açıq ictimai-siyasi və elmi müzakirəyə təqdim edildi. Müstəqil siyasət kursunun çox çətin, lakin ciddi dövlət quruculuğunun vacib və alternativsiz şərti olduğunu bir daha sübut edən faktların, mülahizələrin söylənilməsi qiymətli mesajlar sayıla bilər. Prezident İlham Əliyevin bu məruzəsinin bütünlüklə ən mübahisəsiz mesajı dövlət müstəqilliyi ideologiyası ilə bağlı nə indi, nə də gələcəkdə hər hansı kompromislərə getməyin mümkünsüzlüyüdür. Prezident İlham Əliyevin "Azərbaycan tarix boyu niyə yalnız müstəmləkə altında olub" sualının cavabı şəxsən onun özünə tam aydın olmaqla qətiyyən ritorik xarakter daşımır və bütün cəmiyyətimizi dövlət müstəqilliyi ideologiyası ətrafında səfərbər etməkdə müstəsna toparlayıcı gücə malikdir.

Xarici səfirlərin AXC-Müsavat iqtidarı dövründə hakimiyyət qapılarını ayaqla açdıqlarına dair fikrin bəzi dairələr tərəfindən emosional təzahür kimi izah edilməsinin özü həqiqətə uyğun deyil. Məsələ burasındadır ki, hər bir iqtidarın siyasi hakimiyyət və dövlətçilik missiyası ilə bərabər, bundan daha çox "milli hakimiyyət qüruru və şərəfi" deyilən bir keyfiyyəti də vacibdir. 9 dövlətin rəyi ilə qurulan AXC-Müsavat hakimiyyəti özü belə açıq etirafda bulunursa, təbii ki, belə hakimiyyətin milli qürur və şərəf hissindən məhrumluğu mübahisəsizdir və qapıların ayaqla açılması kimi dözülməz münasibətlər belə şəraitdə öz-özünə meydana çıxır.

"Azərbaycan müstəqil dövlətdir və heç kim bizə təzyiq göstərə bilməz" bəyanatı Prezidentin müstəqil dövlətçilik ideologiyasında milli hakimiyyətin qürur və şərəf məsələsinə nə qədər önəm verdiyinin bariz nümunəsidir".

Ekspert bildirib ki, dövlət başçısı gənclərə müraciətlə "vətənpərvər, savadlı", "dövlətimiz iqtisadi cəhətdən güclü olmalıdır" kimi bəyanat verməklə dövlətçiliyimiz üçün təhlükələrin hələ də mövcud olduğunu, radikal müxalifətin siyasi perspektivinin tam itirildiyi vaxtda bəzi dünya qüvvələrinin gənclərimizi dağıdıcı qüvvəyə çevirmək cəhdlərindən hələ əl çəkmədiyini, lakin bütün bunların qarşısında xalqın Prezidentə birmənalı dəstəyinin yenilməz güc olduğunu bir daha qətiyyətlə ifadə etdi: "Azərbaycanda yarıcan, siyasi siması olmayan və hər cür ictimai dəstəkdən məhrum olmuş müxalifətin beynəlxalq dairələr tərəfindən dəstəklənməməsi barədə deyilən fikirlərin gənc tələbələr üçün xüsusi əhəmiyyəti var. Əslində burada Prezident radikal müxalifətin əlinin xarici maliyyə və siyasi dəstək rıçaqlarından üzülməsinin sadə və məntiqli səbəbini gənclərə aydın şəkildə göstərdi - radikallara xaricdən yardım ona görə bitib ki, onlar müxalifət deyil, cinayətkar dəstədirlər, bu qüvvələrin Azərbaycan xalqı arasında ciddi dəstəyi qalmayıb. Beynəlxalq dairələr həqiqətən də radikalları öz təmənnalı və ambisiyalı məqsədləri üçün hər cür sövdələrə getməyə hazır marginallar kimi görür. Xüsusilə də Almaniyada AXCP, Müsavat və digərləri ilə bağlı "siyasi mühacir" cinayəti şəbəkəsinin ifşası radikallara dünya miqyasında qəti münasibət formalaşdırdı - cinayətə meylli, öz xalqı tərəfindən atılmış dairələrlə ciddi siyasi əməkdaşlığa getmək mənasızdır.

Prezident dövlətçilik platformasında əsl prinsipial müxalifətə ehtiyac olduğunu bir daha ifadə etməklə hazırkı radikal müxalifətin bu missiya üçün bütün gərəkli keyfiyyətlərini tam itirdiyini tələbələrə inandırıcı tərzdə çatdırdı".

Baş redaktor deyib ki, ölkədə ideoloji boşluqların aradan qaldırılmasının mühüm üsullarından biri kimi müəllimlərin tələbələrlə daha sistemli iş aparmasına nail olmaq Prezidentin Azərbaycan xalqına və bəzi dünya dairələrinə sərrast mesajı sayıla bilər - ideoloji boşluqlar aradan qaldırılsa və vətənpərvərlik tərbiyəsi işinə universitetlərin potensialı tam səfərbər edilsə, beynəlxalq dairələrin Azərbaycan gəncliyi ilə bağlı bütün ssenarilərini və "növbəti vəba dalğası" planlarını pozmaq olar.

# Heydər Əliyev müstəqilliyin ilk illərində prezident olsaydı - Qarabağ münaqişəsi tarixində uduzduğumuz əsas məqam...

**"Heydər Əliyev müstəqilliyin ilk illərində Azərbaycanda hakimiyyətdə olsaydı, torpaqlarımız heç vaxt işğal altına düşməzdi". Bunu Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunmuş yubiley tədbirində Prezident İlham Əliyev bildirib.**

*"...torpaqlar işğal altına düşməzdi"*

Ölkə başçısının sözlərinə görə, o dövrdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı: "Bu da müstəqilliyə aparan yol idi. Yeni Azərbaycan Partiyası təsis edildi, bununla da Azərbaycanda siyasi sistem formalaşdı. Çünki Yeni Azərbaycan Partiyası yaranana qədər Azərbaycanda siyasi sistem yox idi. Ayrı-ayrı silahlı dəstələr öz adlarını partiya qoymuşdular, bir-birilə mübarizə aparırdılar, torpaqlar isə işğal altına düşürdü. Əgər Heydər Əliyev müstəqilliyin ilk illərində Azərbaycanda hakimiyyətdə olsaydı, torpaqlarımız heç vaxt işğal altına düşməzdi. Azərbaycanın Heydər Əliyevə qədər bütün rəhbərləri fərarilik edib, xalqı və ölkəni ağır vəziyyətdə tərk edib, qaçmışdılar. İkisi Moskvaya, biri Kələkiyə qaçmışdı. Bu, fərarilik, satqınlıqdır, xəyanətdir. Liderin vəzifəsi dövləti qorumaq, xalqla bir yerdə olmaqdır. Ən ağır, ən çətin anlarda lider qabaqda olmalıdır. Heydər Əliyev hər birimiz üçün nümunədir. Burada əyləşən gənclər bunları bilməlidir. Mən dəfələrlə bunu demişəm, biz - bu tarixi yaşayan insanlar heç vaxt bunu unutmayacağıq, bugünkü uğurlu inkişafımızı hər zaman qiymətləndirəcəyik".

Həqiqətən də 90-cı illərin əvvəllərində Heydər Əliyev hakimiyyətdə olsaydı, torpaqlarımız işğal olunmazdı. Təəssüf ki, o zaman ölkə daxilində olan bədnam qüvvələr buna imkan vermədilər. Nəticədə Dağlıq Qarabağda vüsət alan erməni separatizmi son nəticədə qarşı tərəfin torpaqlarımızı işğal etməsinə gətirib çıxardı.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, o vaxt Heydər Əliyev hakimiyyətdə olsaydı, torpaqlar işğal altına düşməzdi: "Nəzərə almaq lazımdır ki, Heydər Əliyev böyük siyasətçi idi. Çünki o, dünya səviyyəsində böyük siyasi xadim idi. Təbii ki, Heydər Əliyevə SSRİ dağılan ərəfədə maneçilik törədilməsəydi, Azərbaycana gəlib ölkəyə

***Mübariz Əhmədoğlu:** "Heydər Əliyevə SSRİ dağılan ərəfədə maneçilik törədilməsəydi, Azərbaycana gəlib ölkəyə rəhbərlik etsəydi, bu proseslər heç vaxt baş verməzdi"*



rəhbərlik etsəydi, bu proseslər heç vaxt baş verməzdi. Ölkə ərazisinin bir hissəsi ermənilər tərəfindən işğal oluna bilməzdi. Ən azından, ona görə baş verməzdi ki, ermənilər Heydər Əliyevdən çəkinirdilər.

Onlar Heydər Əliyevi şəxsiyyət kimi bütöv qəbul edirdilər. Bilirdilər ki, Heydər Əliyevin rəhbərlik etdiyi məmləkətə müharibə elan etmək yersizdir. Çox təəssüflər olsun ki, o vaxt Azərbaycanda hakimiyyət başında olan qüvvələr bütün bunları dərk etmək istəmədilər. O vaxt SSRİ-yə rəhbərlik edən Mixail Qorbaçov erməni separatizminə hərtərəfli dəstək verirdi. Ona görə də Prezident İlham Əliyev tamamilə haqlıdır. Ulu öndər ölkəyə rəhbərlik etsəydi, torpaqlar işğal altına düşməzdi".

**Vidadi ORDAHALLI**

# O hansı müsəlman ölkələridir - məscidlərə it bağlayan dövləti dəstəkləyən islam ölkə(lər)si...

**Azərbaycan dövləti və xalqı bütün dövrlərdə islam həmrəyliyinə böyük töhfələr verib. Bu istiqamətdə ölkəmizin evsahibliyi ilə bir sıra tədbirlər keçirilib. Azərbaycan öz əməli fəaliyyəti ilə islam həmrəyliyinə töhfələr versə də, təəssüf ki, bəzi islam dövlətlərinin timsalında bunu görə bilmirik.**



***Faiq Ələkbərli:** "Cənab Prezident ad çəkməsə də, elə dəqiq təsvir etdi ki, hər kəs üçün hansı müsəlman dövlətinin Ermənistana dəstək verdiyi, ermənilərlə qucaqlaşdığı aydın oldu"*

Halbuki, Ermənistanın illərdir Azərbaycan torpaqlarını işğalda saxlamasına islam dövlətləri ən kəskin reaksiya verməli idilər, lakin onların bir çoxu hələ də susur və dolayısı ilə ermənilərlə həmrəylik nümayiş etdirir.

Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində çıxış edən ölkə başçısı İlham Əliyev bir sıra məsələləri, o cümlədən, bəzi islam dövlətlərinin ermənilərlə can bir qəlbdə olduqlarını qeyd edib. "...Mən müsəlman ölkələrinə dəfələrlə müraciət etmişəm. Açıq müraciət etmişəm ki, siz Ermənistanla necə qucaqlaşırsınız? Siz bunların liderlərini necə dəvət edirsiniz? Görmürsünüzmü ki, bunlar bizim məscidlərimizi yerlə bir etdilər? Görmürsünüz ki, bizim məscidləri təhqir etdilər? Gedin, baxın, o şəkillər var, onlar Ağdam məscidini, Şuşa məscidlərini, işğal edilmiş digər torpaqlardakı məscidləri nə günə qoydular? Bu, axı təkcə bizim məscidlərimiz deyil, bütün müsəlman aləminin məscidləridir. Buna necə göz yummaq olar? Necə belə riyakarlıq etmək olar?

Biz dəfələrlə islam həmrəyliyi ilə bağlı tədbirlər keçirmişik, sözümüzü demişik. Bunu davam etdirəcəyik və o faşist Njdeyə ucaldılan abidə də gündəlikdədir. O cinayətkar dövlətlə münasibətlər quran bəzi müsəlman ölkələri bunu edəndə və faşistlərə qucaq açanda heç olmasa, o dağılmış məscidlərin təsvirlərini göz önünə gətirsinlər və özlərinə sual versinlər ki, mən kiminlə qucaqlaşıram?!".

Prezident hansı müsəlman ölkəsini nəzərdə tutur?

Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, müsəlman ölkələrinin bir çoxu həmrəylik məsələsində axsayır. O qeyd etdi ki, məscidlər dünyanın harasında olmasından asılı olmayaraq, oranı müdafiə etmək bütün müsəlman, islam dövlətlərinin borcudur: "Cənab Prezident ad çəkməsə də, elə dəqiq təsvir etdi etdi ki, hər kəs üçün hansı müsəlman dövlətinin Ermənistana dəstək verdiyi, ermənilərlə qucaqlaşdığı aydın oldu. Ermənistanla qucaqlaşan müsəlman dövlətlərinin başında molla rejiminin hökm sürdüyü İranın dayandığı məlumdur. İslam Konfransı Təşkilatı, eləcə də islam birliyi ilə bağlı yaradılan təşkilatların çoxu formal xarakter daşıyır və onların arasında, Türkiyə başda olmaqla, bir neçə dövləti çıxmaq şərtilə, o biriləri Ermənistanla isti münasibətlər qurur, Qarabağ probleminin haqlı tərəf olan Azərbaycan dövlətinin xeyrinə həll edilməsinə dəstək olmurlar. Molla rejimi öz maraqlarına görə daim Ermənistanı dəstəkləyib və bu gün də dəstəkləyir. Ona görə də bu fikirləri bu şəkildə şərh etmək daha uyğundur. Bilirsiniz, elə məsələlər var ki, müəyyən səbəblərdən onlar haqqında açıq danışmaq olmur.

Üstüörtülü fikirlərlə həmin məsələləri açmaq olur və hər dövlət də buradan özünə aid olan mesajı alır. Əlbəttə, bizim məscidləri viranə qoyan, o müqəddəs məkanları murdarlayan ermənilərə heç bir müsəlman ölkəsi qucaq açmalı deyildi. Amma təəssüf ki, faşist ideologiyasına xidmət edən, faşizmi dövlət siyasətinə çevirən Ermənistana qucaq açan müsəlman dövlətləri var və hesab edirəm ki, onlar buraxdıqları bu səhvləri düzəltmək üçün addımlar atmalıdırlar. Biz islam həmrəyliyindən danışırıqsa, öz dindaşlarımızı işğalçının yanında görmək istəmirik".

F.Ələkbərli hesab edir ki, Azərbaycan dövlətinin islam həmrəyliyi naminə yürütdüyü siyasət digər islam dövlətlərinə də nümunədir və ermənilərlə qucaqlaşan müsəlman dövlətləri bizdən örnək götürməlidirlər.

**İradə SARIYEVA**

**Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev və Hüseyn Həsənov şəhid anası Zərnigar Məmmədtağı qızının vəfatı ilə əlaqədar oğlu Rafiqə, Akifə, qızları İradəyə, Zərnişana, yaxın qohumu Əntiqəyə, Səxavətə və Safilə xanıma başsağlığı verir, mərhuma Allahdan rəhmət diləyirlər.
Allah rəhmət eləsin!**

# Ukrayna, Gürcüstan və Qırğızıstandan sonra Azərbaycanı hədəf seçmiş "siyasi vəba" - Azərbaycan qlobal bir prosesi dayandırdı...

**Ölkə başçısı İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illiyi ilə bağlı keçirilən tədbirdə müxtəlif sahələri əhatə edən məzmunlu nitq söyləyib. Prezident xüsusilə də xarici qüvvələrin ölkəmizdə həyata keçirmək istədiyi məkrli planların reallaşmadığını bildirib: "...Bax, dediyim sözlərə görə.**



Bizə inanırlar, bizi tanıyırlar, bilirlər ki, sözümüzlə əməlimiz birdir. Bilirlər ki, heç kimin qarşısında baş əymirik, lap ən ağır sınaqlarla, ən ağır təxribatlarla üz-üz qalsaq belə. Bu müddət ərzində belə təxribatlar az olmayıb. 2003-cü ili xatırlayaq. Prezident seçkilərindən sonra Azərbaycanda çevriliş cəhdi. Heç kimə sirr deyil ki, mən prezident seçkilərində təmiz qələbə qazanmışdım. Çünki insanlar Heydər Əliyev siyasətinə səs vermişdilər. İğtişaş törədildi. 2005-ci il. Azərbaycan artıq o inqilabların sırasında növbəti yer kimi göstərilirdi. Belə maykalar buraxılmışdı, üzərində yazılmışdı: "Gürcüstan, Ukrayna, Qırğızıstan, Azərbaycan". Yəni dördüncü biz olmalı idik və bizdən sonra da başqaları olmalı idi. Biz dayandırdıq bu vəbanı, bu xəstəliyi, bu azarı. İndi bütün dünya görür ki, bu inqilablar o ölkələrə ancaq bədbəxtlik gətirib və indi öz problemləri ilə üz-üzədirlər, orada iğtişaşlar səngimir. Çünki oralara bu zəhərli inqilab toxumu səpilmişdi. Necə ki, bu zəhərli alaq otu kimi Xalq Cəbhəsi-Müsavat cütlüyü hakimiyyətdə bir il qaldı. O qədər zəhərlədilər ki, bu günə qədər də o zəhərin təsiri bəzi yerlərdə qalır. Ona görə növbəti məntəqə biz olmalı idik və narıncı maykaları da gətizdirmişdilər, sadəcə olaraq, özünü müxalifət adlandıran ünsürlər bir daha öz kütlüyünü göstərmişlər. Fikirləşmədilər ki, noyabr ayında parlament seçkiləri keçirilməli idi, noyabr ayı soyuq keçir. Ona görə o maykaları bilmirdilər necə geyinsinlər, bəziləri pencəyin üstündən maykalar geymişdilər. Yəni çox gülməli bir mənzərə idi. O da alınmadı. Nəyə görə?! Xalq istəmədi! Xalq dedi ki, yox, bəsdir, görmüşük sizi, necə ki, hakimiyyət uğrunda mübarizə naminə talamısınız, döymüsünüz, söymüsünüz, öldürmüsünüz, Gəncəni bombalamısınız, vətəndaş müharibəsini başlamısınız, Qarabağı satmısınız, Şuşanı satmısınız, Laçını satmısınız. Sonra da fərari kimi qaçmısınız, prezident Kələkiyə, dövlət katibi Kələkiyə, o birilər isə vəzifələrini dondurdular".

## Elşən Həsənov: "Bundan yalnız hakimiyyət yox, bizim hamımız əziyyət çəkə bilərik"

Göründüyü kimi, ölkə başçısı xarici qüvvələrin əli ilə həyata keçirilən inqilabların Azərbaycanda qarşısının alındığını qeyd edir. Həmin proses Azərbaycanda niyə həyata keçmədi?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə bildirdi ki, Prezidentin səsləndirdiyi fikirlər konkret faktlara əsaslanır: "Mən ölkə başçısının çıxışına qulaq asdım. Sizin dediyiniz məqam xüsusilə yadımdadır. Bəli, 2005-ci ildən başlayaraq keçmiş postsovet ölkələri ilə bağlı bir hərəkat başladı. Bunun başqa adına isə Sorosun "rəngli inqilab"ları da deyirdilər. Ölkə başçısı doğru olaraq qeyd edir ki, bəzi keçmiş SSRİ respublikalarında həmin plan baş tutdu. Hərəsinə də bir rəngli ad verdilər.

### "Belə məsələlərdə hər bir fərd dövlətinin yanında olmalıdır"

Azərbaycan üçün isə narıncı rəngi seçmişdilər. Həmin rənglər inqilabın simvolu sayılırdı. Fikir versəniz görərsiniz ki, həmin ölkələrin heç biri tərəqqi əldə edə bilmədi. Ukraynda tez-tez hakimiyyətlər dəyişdi, nəticədə ölkə ərazisinin böyük bir hissəsini itirdi. Gürcüstan da onun kimi. Bu ölkənin də separatizm problemi olduğu kimi qaldı. Bu günün özündə Gürcüstanda meydan mübarizəsi gedir. Qırğızıstan da onun kimi. Mən heç də o fikirdə deyiləm ki, hakimiyyət uğrunda mübarizə aparılmasın. Bu, hər bir partiyanın haqqıdır. Burada qeyri-adi, qanunsuz nəsə yoxdur. Ancaq bütün dünyada gedən proseslərdən məlumdur ki, inqilablar heç bir ölkəyə firəvanlıq bəxş etmir. Hakimiyyət uğrunda mübarizə, hakimiyyətin dəyişməsi sivil, qanuni yollarla həyata keçməlidir.

**Bu heç də o anlama gəlmir ki, Azərbaycana olan xarici təsirlər dayanıb. Müxtəlif üsullarla bizim dövlətçiliyimizi sarsıtmaq istəyirlər. Etnik separatizm, dini radikalizm kimi elementlərin aktivləşdirilməsi üçün bütün münbit şəraitləri ələk-vələk edirlər. Bundan yalnız hakimiyyət yox, bizim hamımız əziyyət çəkə bilərik. Belə məsələlərdə hər bir fərd dövlətinin yanında olmalıdır".**

***Məhəmmədəli QƏRİBLİ***

# Xarici səfirliklərin təpiklə qapı açdığı iqtidar - "hakimiyyət şərəfi"...

**"AXC-Müsavat cütlüyü dövründə prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar, ona göstərişlər verirdilər". Bunu Prezident İlham Əliyev Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə çıxışı zamanı deyib.**



Dövlət başçısı bildirib ki, gənclər bu tarixi bilməlidirlər: "Gənclər bunu görməyiblər. Onlara elə gəlir ki, həmişə belə olub. Onlara elə gəlir ki, Azərbaycan həmişə belə çiçəklənən, firavan dövlət olub. Belə deyildi. Biz o günləri yaxşı xatırlayırıq. Xalq Cəbhəsi-Müsavat cütlüyünün xəyanətkar hakimiyyəti dövründə on minlərlə insan saatlarla çörək növbəsində dayanırdı. Əli silahlı quldurlar meydan oxuyurdular, şəhərlərimizdə insanları incidirdilər, oğurlayırdılar, işgəncələr verirdilər, jurnalistləri döyürdülər. Məhz Xalq Cəbhəsi-Müsavat hakimiyyəti - özünü demokrat adlandıran bu ünsürlər Azərbaycanda senzura tətbiq etmişdilər. Heydər Əliyev hakimiyyətə gələndən sonra senzuranı ləğv etdi. Gənclər bu tarixi bilməlidirlər. Müəllimlər bu tarixi onlara çatdırmalıdırlar ki, həm həqiqəti bilsinlər, həm də Azərbaycan gələcəkdə heç vaxt bu ağır vəziyyətə düşməsin. Azərbaycan heç vaxt gözü kölgəli olmasın, heç vaxt başqasının iradəsindən asılı olmasın, heç vaxt başqa dövlətlər qarşısında baş əyməsin. AXC-Müsavat cütlüyü dövründə prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar, ona göstərişlər verirdilər. O da məzlum bir adam kimi o göstərişləri yerinə yetirirdi. Ona görə belə günə düşdü".

## Elçin Mirzəbəyli: "Həmin illərdə xarici ölkələrin hakimiyyətə təsir imkanları aşkar şəkildə özünü göstərirdi"

O dövrü xatırlayanlar yaxşı bilirlər ki, sözügedən qüvvələrin hakimiyyəti dönəmində xarici dövlətlərin Azərbaycana təsir imkanları böyük idi. Ən başlıcası, ona görə ki, hakimiyyətdə olanlar səriştəsiz idilər. Bunun nəticəsi idi ki, prezidentin kabinetinin qapısını xarici səfirlər ayaqları ilə açırdılar.

### "O vaxt Arif Hacılı parlamentdə bəyan etdi ki, Azərbaycanda hakimiyyət dəyişikliyi 9 ölkənin..."

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Elçin Mirzəbəylinin sözlərinə görə, həmin illərdə xarici ölkələrin hakimiyyətə təsir imkanları aşkar şəkildə özünü göstərirdi: "Bununla bağlı çoxsaylı fakt sadalamaq olar. O vaxt Arif Hacılı parlamentdə bəyan etdi ki, Azərbaycanda hakimiyyət dəyişikliyi 9 ölkənin rəhbərliyi ilə razılaşdırılıb. Yalnız bu fakt həmin illərdə hakimiyyətin nə gündə olduğunu təsəvvür etməyə kifayət edir. Bu onu göstərir ki, həmin illərdə hakimiyyət necə fərqli spektrlərdən asılı idi. Prezident İlham Əliyev sözügedən məsələlərlə bağlı nümunə gətirməklə həmin dövrün real mənzərəsini aydın şəkildə təqdim etdi. Təsəvvür edin ki, bu dövlətlərin hər birinin özünün strateji, geosiyasi və iqtisadi maraqları var. Belə olduğu təqdirdə 9 ölkə ilə hansısa maraqları razılaşdırırsansa, nəticə etibarilə, bu ölkələrdən asılı vəziyyətə düşürsən. Yürütdüyün siyasətdə də onların maraqlarını nəzərə almaq məcburiyyətində qalırsan. Bu da ona gətirib çıxarır ki, ölkənin müstəqilliyi kifayət qədər məhdudlaşır. Xarici siyasət yürütmək problemi olur. İqtisadi müstəvidə ölkənin maraqlarına uyğun addımlar atmaq mümkün olmur. Bu, cəmiyyətin parçalanmasına, dövlətin təhdidlərlə üzləşməsinə zəmin yaradır. Bax, həmin illərdə vəziyyət belə idi".

***Vidadi ORDAHALLI***

# Azərbaycan Xalq Cümhuriyyətinin missioner təzyiqləri altında dəyişdirilmiş ilk dövlət bayrağı...

***Anar İsgəndərli:** "1918-ci ildə biz dövlət müstəqilliyimizi başqa ölkənin paytaxtında elan etdikdə bizə Qafqaz İslam Ordusu kömək etdi, ona görə də Cümhuriyyətin ilk bayrağı üzərində 8 guşəli ulduz əks olunan Osmanlı bayrağının bənzəri olan bayraq oldu"*

**Məlum olduğu kimi, noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də iştirak edib. Ölkə başçısı söylədiyi geniş nitqdə Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı diqqətçəkən fikirlər açıqlayıb.**

Cümhuriyyət tarixinə geniş münasibət bildirən Prezident İlham Əliyev BDU-nun Cümhuriyyət yadigarı olduğunu vurğulayıb.

O, həmçinin, tariximizin çoxları üçün gizli qalan bəzi məqamlarını da qeyd edib: "...Xalqımızın tarixi faciələrlə doludur. Biz nəyə görə uzun illər, əsrlər boyu müstəmləkə kimi yaşamışıq? Nəyə görə başqa dövlətlərin tərkibində yaşamışıq? Nəyə görə bizim dövlətçiliyimizin tarixi çox məhduddur? O vaxt hətta müstəqil dövlətlər olanda onların da imkanları məhdud idi. Elə götürək Azərbaycan Xalq Cümhuriyyətini, ölkəni idarə edə bilmirdi. Xarici hərbi missiyaların rəhbərləri qərarlar qəbul edirdilər. Hətta bizim o vaxt qəbul edilmiş birinci dövlət bayrağımız xarici hərbi missioner tərəfindən dəyişdirildi. Ultimatum qoyuldu, tarixçilər bunu yaxşı bilirlər. Müstəqil dövlətin rəhbərliyinə ultimatum qoyuldu ki, siz bu bayrağı dəyişdirməlisiniz və dəyişdirdilər. Ondan sonra indiki üçrəngli bayraq təsis edildi. Ona görə hətta o dövrlərdə müstəqillik yarımçıq idi, natamam idi...".

Prezident İlham Əliyevin "hətta bizim o vaxt qəbul edilmiş birinci dövlət bayrağımız xarici hərbi missioner tərəfindən dəyişdirildi. Ultimatum qoyuldu, tarixçilər bunu yaxşı bilirlər" fikrini şərh edən tarixçi-alim, Cümhuriyyət dövrünün ciddi araşdırıcısı, professor Anar İsgəndərli "Bakı-Xəbər"ə bildirdi ki, həqiqətən də Cümhuriyyətin ilk bayrağı xarici missioner tərəfindən dəyişdirilib. Bu dəyişdirilmənin səbəblərini izah edən A.İsgəndərlinin sözlərinə görə, bu, bayrağın Osmanlı bayrağına bənzəməsi ilə bağlı olub. "1918-ci il iyunun 21-də bayrağımız qəbul olundu. Birinci bayrağımız eynən Osmanlı bayrağının oxşarı idi. Sadəcə, Osmanlı bayrağında beş guşə idi, bizim bayraqda isə səkkiz guşə əks olunmuşdu. Cümhuriyyətin bayrağı 1918-ci ilin noyabr ayının 9-na qədər bu bayraq olub. 1918-ci il noyabrın 9-da isə üçrəngli bayraq qəbul olundu. Cümhuriyyətin birinci bayrağı ilə bağlı təhdid nədən ibarət idi? Bizi təhdid edən qüvvələr iddia edirdilər ki, belə bir xalq yoxdur, belə bir xalqın müstəqil dövləti ola bilməz, bu, sadəcə olaraq, Osmanlı dövlətinin bir hissəsidir, az qala bayrağı da Osmanlı bayrağıdır. Amma hələ 1907-ci ildə Əli bəy Hüseynzadə bizim üçrəngli bayrağımız haqqında "Fyuzat" jurnalında bəhs etmişdi. O, "bizim gələcəkdə olan Cümhuriyyətin bayrağı necə olmalıdır? 1.Türk hissiyyatlı. 2. İslam etiqadlı. 3. Avropa (firəng) qafalı" - deyə yazırdı. Ondan sonra bu fikri Ziya Göyalp inkişaf etdirdi və ən nəhayət, 1915-1916-cı illərdə Rəsuzadə "Açıq söz" qəzetində bu formanı saxladı və bayraqda olan zolaqlarda dəyişiklik etdi. Yəni birinci rəng türkçülük, ikinci rəng müasirlik, üçüncü rəng isə islamçılıq. Amma ona qədər isə Əli bəy Hüseynzadədə də, Ziya Göyalpda da türkçülükdən sonra islamçılıq gəlirdi, Rəsulzadənin xidməti o oldu ki, yerləri dəyişdi. Demək istəyirəm ki, hələ Cümhuriyyət elan edilməmişdən bir neçə il əvvəl üçrəngli bayraq var idi. Amma 1918-ci ildə biz dövlət müstəqilliyimizi başqa ölkənin paytaxtında elan etdikdə bizə Qafqaz İslam Ordusu kömək etdi, ona görə də Cümhuriyyətin ilk bayrağı üzərində 8 guşəli ulduz əks olunan Osmanlı bayrağının bənzəri olan bayraq oldu".

A.İsgəndərli qeyd etdi ki, Osmanlı qüvvələri 1918-ci il noyabrın 10-da Bakını tərk etməli idi. Onun sözlərinə görə, 1918-ci il oktyabrın 30-da Mudrost müqaviləsinə əsasən, Osmanlı məğlub dövlət idi və Osmanlı qüvvələri Cənubi Qafqazdan, o cümlədən, Azərbaycandan çıxmalı idi. "Bura isə Antanta qüvvələri daxil olmalı idi. Antanta qüvvələrini də burada ingilislər təmsil edirdilər.

Ənzəlidə olan general Tomson Bakıya daxil oldu və noyabrın 17-də o, Bakıya gəldikdə ilk dəfə olaraq üçrəngli bayraq Bakı vağzalında qaldırılıb. Azərbaycan Xalq Cümhuriyyəti üçrəngli bayrağı qaldırmaqla onlara göstərmək istədi ki, Azərbaycan müstəqildir və bizim gücümüz də var. General Tomson əvvəlcə müstəqilliyimizi tanımasa da, dekabrın 28-də dedi ki, Fətəli Xan Xoyski başda olmaqla mən bu hökuməti tanıyıram. Təbii ki, Osmanlı və Antanta qüvvələri arasında düşmən münasibətlər olduğu üçün, bizə qarşı təhdidlər də olub.

Bir tarixçi kimi bu məsələnin mahiyyətini izah etdim və hesab edirəm ki, izahım müəyyən məsələlərə aydınlıq gətirdi. Cümhuriyyət yeni qurulmuş dövlət idi və belə məsələlər oldu və olmalı idi də" - deyə A.İsgəndərli qeyd etdi.

***İradə SARIYEVA***



*"Osmanlı və Antanta qüvvələri arasında düşmən münasibətlər olduğu üçün, bizə qarşı təhdidlər də olub"*

# Əli İnsanova qarşı yeni ictimai qınaq - "Haqq-Ədalət" Partiyası ideyasının əsl müəllifləri kənarda qaldı...

**Sabiq səhiyyə naziri Əli İnsanovun partiya yaradıcılığında maraqlı proseslər yaşanır. 15 nəfərlik təşkilat komitəsi elan olunandan sonra artıq həmin siyahıda adları yazılmış iki şəxs onların prosesdən xəbərlərinin olmadığını bildirib.**

Şəhid Milli Qəhrəman anası Qalibə Budaqova adının siyahıya salınmasına ilk etiraz edənlərdən oldu. O, mediaya açıqlamasında bildirdi ki, xəstədir, heç nədən xəbəri yoxdur və hər hansı bir prosesdə iştirak etməyib. Sonra isə rayonlardan birində məhkəmə sədri işləmiş şəxs etirazını bildirdi. Dedi ki, heç bir partiya quruculuğunda iştirak etmədiyi halda, onun adını siyahıya təşkilat komitəsinin üzvü kimi qeyd ediblər.

Elə bütün bu proseslər göstərir ki, Ə.İnsanovun yaratdığı partiyanın adı ilə mahiyyəti üst-üstə düşmür. Ad demişkən, etibarlı mənbənin bizə verdiyi məlumata görə, Ə.İnsanov partiyanın adının da halallığını almayıb. Mənbənin sözlərinə görə, Ə.İnsanov həbsə düşəndən sonra onun alovlu müdafiəçisi olan Rizvan Talıbov adlı ictimai fəal bu adda qurum yaradıb. Hətta bildirilir ki, 2006-cı ilin sonunda Qərbi Azərbaycana Qayıdış Birliyinin rəhbəri R.Talıbov "Haqq və Ədalət" Partiyasının təsis qurultayının keçirilməsinin təşkili üçün 21 nəfərdən ibarət təşkilat komitəsi qurub və elan edib. R.Talıbovun eyniadlı qəzet buraxdığı da bildirilir. Mənbənin dediyinə görə, onun yolunda sonsuz məhrumiyyətlərə düçar olmağına baxmayaraq, Ə.İnsanov həbsdən çıxandan sonra R.Talıbovdan nə partiyanın adının halallığını alıb, nə də heç onu yeni yaradılan qurumda görmək istədiyini bildirib. R.Talıbov, nədənsə, bu məsələlər ətrafında danışmaq istəmir. Çox güman ki, onun verəcəyi açıqlamalardan sonra Ə.İnsanovun onsuz da zədəli olan reputasiyası tamamilə məhv olacaq. Hələlik isə ortada olan faktlar bunlardır. Ə.İnsanov ona mal-mülk oğrusu deyənlərlə razılaşmasa da, əməlləri ilə bunu sübuta yetirir. Həm də saxtakarlığa yol verməkdən belə çəkinməyərək, siyasi ambisiyalarını reallaşdırmağa çalışır. Ortada iki, bəlkə də sayı artacaq dərəcədə insanı aldadaraq prosesə cəlb etmək faktı var. Bütün bunlar isə adı oğurlanan və başqasına məxsus olan "Haqq və Ədalət" brendi altında edilir.



Yəqin Ə.İnsanov nazir olan zaman etdiyi qanunsuzluqlarla siyasi arenada edilən qanusuzluqların yerini səhv salıb.

**Düşünür ki, nazir olduğu dönəmdəki kimi, hamı ona "amin" deyəcək. Ancaq nə dərəcədə yanıldığı və necə biabır olduğu ortadadır. Siyasi perspektivin olmaması bir tərəfə, Ə.İnsanov yaratdığı qurumda elementar halallıq prinsiplərini də qorumur. Bünövrəsi fırıldaq, haramla qurulan işdən isə kimsə xeyir görə bilməz.**

*Məhəmmədəli QƏRİBLİ*

# Əli Kərimlinin Tofiq Yaqublu vasitəsilə Müsavatı ələ keçirmək planı... İbrahim İbrahimli Eldəniz Quliyev və Xədicə İsmayılı ifşa etdi

**Əli Kərimlinin təhdid və qorxu dolu daxili dünyası gerçəklərini qiymətləndirməsinə mane olur. Onun ən böyük gerçəyi yalan və hiylə üzərində formalaşır. Buna görə, tez-tez haqqında olan gerçəkləri gözdən itirməyə çalışır.**

Daha doğrusu, apardığı analizlərində həqiqətlərin qəlibinə öz gerçəklərini doldurur. Bu gerçəkləri qorumaq üçün əl atmadığı variant, üz tutmadığı yol yoxdur. Hətta Ə.Kərimli, el arasında deyildiyi kimi, "ən axırıncı yoldan" da istifadə etməkdən belə çəkinmir.

O heç vaxt özündən başqasını anlamayıb. Çatmaq istədiyi məqsədləri uğrunda rahatlıqla ən yaxın adamını belə əzməyə hazırdır. Hər kəsə məlumdur ki, Əli Kərimli özünü "qəhrəman" etmək, "lider" kimi insanlara sırımaq üçün bütün variantlardan istifadə edir. Gah yalandan başına sarğı vurur, gah da qarnını tutur. Bununla da siyasi xal qazanmağa çalışır. Ə.Kərimlinin bu oyunları onun ətrafında olan digər insanları da cana doyurub.

Nəticədə, müxalifət düşərgəsində yeni gərginlik yaranıb. Redaksiyamızın əldə etdiyi məlumata görə, vaxtaşırı ayrı-ayrı "budaqlara qonan" Tofiq Yaqublunun Repressiya və İşgəncələr Əleyhinə Komitəyə rəhbər təyinatı ilə bağlı Komitə üzvləri arasında narazılıqlar baş alıb gedir. Belə ki, Müsavatın siyasi mühacir biznesi böhranından yararlanan Əli Kərimli yenidən Tofiq Yaqubluya "stavka" edir. Bu gün heç kəsə sirr deyil ki, AXCP sədri Əli Kərimlinin xəmiri şantajla yoğrulub və o, partiyada özünə qarşı çıxan istənilən tərəfi hər zaman şantajla hədələyib. "Siyasi fəaliyyəti" xəyanətlərlə, satqınlıqlarla, ikiüzlülüklərlə və bu qəbildən başqa-başqa "məziyyətlər"lə bol olan AXCP sədri Ə.Kərimlinin kimliyi hər zaman Azərbaycan cəmiyyətinə bəlli olub.

## Əli Kərimli Tofiq Yaqubludan necə istifadə edir? Kərimlinin Yaqublu kartı ifşa olundu...

Qeyd etyiyimiz kimi, Ə.Kərimli məqsədlərinə çatmaq üçün hər zaman kimlərisə alət edərək onların arxasında gizlənir. Ə.Kərimlinin artıq "yeni məziyyəti" də üzə çıxıb. Bu dəfə Ə.Kərimlinin oyuncağı Tofiq Yaqublu oldu.

Tofiq Yaqublu vasitəsilə Müsavat Partiyasını ələ keçirmək cəhdi uğursuzluqla nəticələnsə də, yenidən başqa hədəfə hücuma keçdiyinə dair etibarlı mənbələrdən əldə etdiyimiz məlumatlar var. Əli Kərimli əlində alətə çevirdiyi T.Yaqublu vasitəsilə Müsavat Partiyasına təsir etmək imkanı əldə edəcəyini düşünürdü.







Xatırladaq ki, son vaxtlar Müsavat başqanı Arif Hacılının miqrant alveri məsələsində ifşasından sonra onun istefası tələb edilir və tələb edənlər arasında Əli Kərimliyə yaxınlığı ilə seçilən AXCP üzvləri də var. Beləliklə, Tofiq Yaqublu Milli Şuranın sədri seçilərsə, Əli Kərimli Müsavat Partiyasına təsir imkanlarını artırmaqdan ötrü, yəni şəxsi maraqlarını təmin etmək üçün Tofiq Yaqubluya müəyyən vədlər də verib - Arif Hacılını sıxışdırıb, onu başqanlıq postuna doğru yönəltmək. Əbəs deyil ki, məlum olaylardan sonra Tofiq Yaqublu Arif Hacılıya qarşı ittihamlar səsləndirməyə başlayıb. Yəni Əli Kərimli hazırda öz məqsədlərini həyata keçirmək üçün Tofiq Yaqublunu silah qismində istifadə edir. Daha bir danılmaz həqiqət isə Oqtay Gülalıyevlə bağlıdır. Əli Kərimli hüquq müdafiəçisinin düşdüyü vəziyyətdən kifayət qədər məmnundur. Çünki Tofiq Yaqublu onun üçün Oqtay Gülalıyevi bu məsələdə də əvəzləyə bilər. AXCP sədri kirli planlarını həyata keçirmək üçün, necə deyərlər, bir güllə ilə iki dovşan vuracağını düşünür. Lakin bu gedişatla AXCP sədri anidən özünü "yandıra" bilər...

"Trend"-in əldə etdiyi məlumata görə, özünü Demokratik Qüvvələrin Milli Şurası adlandıran dərnəyin üzvü İbrahim İbrahimli Eldəniz Quliyev və Azərbaycana qarşı informasiya müharibəsi aparan ermənilərin göz bəbəyi sayılan Xədicə İsmayıldan xarici ölkələrin xüsusi xidmət orqanları ilə əməkdaşlıqda şübhələndiyini bildirib.

Dərnəyin daxilində mövcud olan mənbənin bildirdiyinə görə, İbrahim İbrahimlinin mövqeyi son dövrlər onun ailə üzvlərini də hiddətləndirib. İbrahimin ailə üzvlərinin "hiddəti" artıq dərnəyin bəzi üzvləri arasında narahatlığa səbəb olub. Hətta İbrahim İbrahimlinin ailə üzvlərinin bir gün onun üzünə dura biləcəyi ilə bağlı fikirlər səsləndirilib.

**Ermənistanda ötən il baş tutan məlum hakimiyyət dəyişikliyindən sonra bu ölkənin Qərbin, xüsusən də ABŞ-ın orbitinə yuvarlamaq cəhdlərinin olması heç kimə sirr deyil. Rusiyadan gizli və ya açıq şəkildə edilən bütün xəbərdarlıqlara baxmayaraq, Nikol Paşinyan hökuməti Moskvaya xəyanət edərək, Qərbdən gələn göstərişləri hələ də can-başla yerinə yetirir.**

# ABŞ Ermənistanda Rusiyanı qəzəbləndirəcək növbəti gediş edir

Hazırda Rusiyanın bu xüsusda narahat olduğu bir sıra mühüm məqamlar var. Onlardan biri Ermənistan ərazisində yerləşən ABŞ-ın bioloji laboratoriyalardır. Özü də Moskvanın dəfələrlə təkid etməsinə baxmayaraq, İrəvan hələ də bu laboratoriyalara rusları buraxmır.

Məsələ ilə bağlı Ermənistanın "168 jam" qəzeti yazır: "Rusiyalı mütəxəssislərin Ermənistan ərazisində yerləşən bioloji laboratoriyalara buraxılması məsələsi sonuncu dəfə Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Ermənistana bu ayın ortalarında baş tutan ikigünlük səfərində əsas müzakirə mövzularından biri oldu. Lavrov bildirdi ki, Moskva bu məsələ ilə bağlı tezliklə memorandum imzalamaq ümidindədir. Amma İrəvan buna tələsmir. Moskva da bundan çox qəzəblənir. Hələ 2008-ci ildən Pentaqon Ermənistanda 10-a yaxın bioloji laboratoriya yaradıb. Onlar Amerikanın müdafiə məqsədli "Müştərək iştirakla bioloji proqram"ı üzrə işləyirlər. Ermənistan hakimiyyəti bildirir ki, bioloji laboratoriyalar yalnız tibbi məqsədlərlə istifadə olunur. Amma Rusiya XİN rəhbəri Moskva və İrəvanın bioloji təhlükəsizlik sahəsində qarşılıqlı fəaliyyətinin vacibliyini vurğulayıb. Bu kontekstdə o, bioloji silahın hazırlanmasını qadağan edən konvensiyanın mövcudluğunu da xatırladıb və bildirib ki, ABŞ qəti şəkildə bu konvensiyaya etiraz edir, dünyanın hər yerində ikitərəfli əsasda özünə tabe olan laboratoriyalar yaratmağa çalışır. Lavrovun bu bəyanatından belə nəticəyə gəliblər ki, Rusiya həmin laboratoriyaların Ermənistanda mövcud olduğunu güman edir. Hazırda laboratoriyalar məsələsi Moskva və İrəvan arasında ciddi ziddiyyət predmeti olaraq qalmaqda davam edir və belə getsə, Moskva Ermənistana qarşı müəyyən cəza tədbirlərini işə sala bilər".



Rusiyanı narahat edən daha bir məqam isə Ermənistanda ABŞ-ın təsir dairəsində olan QHT-lərə yaradılan şəraitdir. Bu günlərdə sözügedən xüsusda "Nezavisimaya gazeta" maraqlı məqamlara toxuunaraq yazırdı: "Bu gün Qərb polittexnoloqları tərəfindən şüurun kompleks emalı üzərindən Rusiyaya nifrət aşılanır. Erməni xalqı da belə bir emalın qurbanı olub. Keçmiş prezident Serj Sarkisyan 2018-ci ilin aprelində "məxməri inqilab" adlı siyasi fırıldaq nəticəsində hakimiyyəti Nikol Paşinyana verib. Lakin Ermənistan bu hadisələrdən ilyarım sonra belə demokratik ölkə olmayıb, başda Ermənistanın Konstitusiya və qanunlarının durmadığı avtoritar bir dövlətə çevrilib, hamını isə Qərbin qeyri-hökumət təşkilatlarının (QHT) nizamnamələri yönəldir. Ermənistan mədəniyyət, iqtisadiyyat və ənənəvi dəyərlər üçün doğan bütün nəticələrlə ABŞ-ın geopolitik maraqları orbitinə düşüb. Məsələ burasındadır ki, Qərbin QHT-ləri, fondları, sektaları Ermənistana doldurulub. Rusiya, adətən, öz qaydalarına vadar etməyərək postsovet məkanı ölkələrinin hökumətləri ilə münasibətlər qurur və təmas saxlayır. ABŞ isə üsulların geniş cəbbəxanası, o cümlədən çirklilərindən istifadə edərək birbaşa xalqla işləyir. İctimai rəyin gənc, iddialı potensial liderlərini tapır. Təhsil verir, gərəkli ideya məzmunu ilə qidalandırır və bu qayda ilə sıfırdan yeni elita formalaşdırır.

Dövlətləri məhv etmək üzrə məşhur mütəxəssis Corc Sorosun "Ermənistanın Açıq Cəmiyyəti" fondu, eləcə də "Yehova şahidləri", "Həyat Sözü Kilsəsi" təriqətləri Ermənistanda işləyir. Əldə olan məlumata görə, Ermənistanda çoxu Qərb ölkələrinin hökumətləri, böyük bölümü ABŞ, Fransa, Böyük Britaniya tərəfindən maliyyələşdirilən 3,5 mindən çox QHT qeydə alınıb və işləyir. Ermənistanın fəaliyyətdə olan hökumətində Qərb QHT-lərinin əməkdaşları çalışır. Nikol Paşinyan hökuməti bu fonda hələ də Rusiya-Ermənistan münasibətləri kontekstində özünü gözlənilməz aparır. Hətta Rusiya ermənilərini Ermənistan hökumətinin tərkibinə daxil etmək də qəti qadağan edilib. Paşinyan hökuməti Ermənistanda artıq süni şəkildə qarşılıqlı nifrət atmosferi yaradır, demokratik cəmiyyət qurmaq çağırışları altında insanların hissləri ilə oynayır. Paşinyan xarici və daxili siyasətdə gözlənilməz fəaliyyəti ucbatından Ermənistanın milli təhlükəsizliyinə baş təhlükə olub. O, Amerika milyarderi Corc Sorosa bağlı iki Qərbyönlü qeyri-hökumət təşkilatına hökumət fondundan yetərincə böyük maliyyə vəsaiti verir. Burada xatırlatmaq lazım gəlir ki, ABŞ-ın Ermənistan səfirliyinin 2500-ə yaxın işçisi var (bundan artığı ancaq ABŞ-ın İraq səfirliyindədir), bunların 1200-1400 nəfəri ABŞ Silahlı Güclərinin xüsusi təyinatlılarının təmsilçiləridir. Bu hərbçilər Ermənistanın paytaxtında nə edirlər, məqsədləri nədir? Bu sualı Ermənistanın baş naziri Nikol Paşinyana vermək gərəkdir.

ABŞ-ın ən önəmli hədəfi həm də Rusiyanın 102-ci hərbi bazasıdır. Rusiya hərbçilərinin, ola bilsin, ən yaxın vaxtda ABŞ tərəfdən hücum obyekti ola biləsi İranın yaxınlığında varlığı kürəsəl dünya düzəni memarları üçün son dərəcə arzuolunmazdır. Ermənistandakı QHT-lərin böyük şəbəkəsinin məqsədi Rusiya-Ermənistan münasibətlərini korlamaq, KTMT, MDB, AİB-dən çıxmaq, başlıcası isə, Rusiya hərbi bazasını Ermənistandan çıxartmağa nail olmaqdır. Proseslər elə bu istiqamətdə də gedir".

Belə bir vaxtda Ermənistanın "Pastinfo" nəşri Rusiyanı qıcıqlandıran daha bir məlumat yayıb. Burada qeyd olunur ki, ABŞ Federal Təhqiqat Bürosu İrəvanda ofisə sahib olma məsələsində maraqlıdır: "Məlumata görə, hələ avqust ayında ABŞ Federal Təhqiqat Bürosunun agenti (milliyyətcə ermənidir, Kaliforniyadandır) İrəvana səfər edib. O, təxminən üç ay İrəvanda olub və yalnız bir neçə gün bundan öncə ABŞ-a qayıdıb. Məlumata görə, ötən üç ay ərzində Federal Təhqiqat Bürosunun nümayəndəsi Ermənistanın hüquq-mühafizə orqanlarında görüşlər keçirib və əlaqələr qurub. Federal Təhqiqat Bürosunun regionda nümayəndəliyi var və bu nümayəndəliyin ofisi Gürcüstanda yerləşir, lakin əməkdaşlığın daha səmərəli olması üçün İrəvanda ayrıca ofisin olması variantı istisna olunmur. Agent burada əməkdaşlıq mexanizmləri yaradıb və bu mexanizmlər yeni ofis üçün faydalı ola bilər". Aydındır ki, ABŞ xüsusi xidmət orqanlarının Ermənistana gəlişi Moskvada heç də xoş qarşılanmayacaq və bu fonda Kremlin İrəvana qarşı təzyiqlər rıçağını işə salması tamamilə gözlənilən sayılır.

***Nahid SALAYEV***

**Azərbaycan Prezidenti Bakı Dövlət Universitetinin 100 illik yubileyi ilə bağlı təşkil edilmiş tədbirdə çıxışı zamanı Azərbaycanın beynəlxalq arenada qarşılaşdığı maneələrdən də söz açıb: "Bu gün Azərbaycan bax, belə inkişaf edir. Ona görə dünyada bizə rəğbət artır.**



# BMT Təhlükəsizlik Şurasına seçkilərdə Azərbaycana sonadək mane olmuş "dost" ölkə...

***Yeganə Hacıyeva:*** *"Cənab Prezidentin haqqında söylədiyi ölkə Sloveniyadır"*

Təsadüfi deyil ki, dünya birliyinin mütləq əksəriyyətini təşkil edən ölkələr bizə səs verirlər. Necə ki, 8 il bundan əvvəl səs veriblər, biz 155 ölkənin səsilə BMT Təhlükəsizlik Şurasına üzv seçilmişik. Özü də necə seçilmişik... İndi diplomatlar bunu yaxşı bilirlər ki, adətən, səsvermə bir gün ərzində keçirilir və tez bir zamanda yeni üzvlər seçilir. Bizdə isə bu, üç gün çəkdi. Üç gün, 16 tur. Nəyə görə? Çünki bizə rəqib olan ölkə öz namizədliyini geri götürmürdü. Biz hər bir turda böyük səs fərqi ilə qalib idik, amma lazım olan səsləri yığa bilmirdik. Adətən belə olan halda, səslərdə fərq böyük olanda məğlub ölkə öz namizədliyini geri götürür. O isə götürmürdü. Özü də bizə dost ölkə idi. Təəccüb etdim, bu, nə məsələdir, sonra öyrəndik ki, imkan vermirlər. Bəzi böyük dövlətlər imkan vermir və istəyirdilər ki, bizim üzvlüyümüzün qarşısı alınsın. Bir daha qayıdıram bu məsələyə. Əgər həmin o ölkələrin nümayəndələri sizə desələr ki, "biz Azərbaycanı istəyirik, inkişafını istəyirik", inanmayın. İstəsəydilər, imkan verərdilər. Mən indi onların adını çəkmək istəmirəm, maraqlananlar öyrənə bilərlər. On altı tur və üç gün bizim üzvlüyümüzü əngəlləmək istəyirdilər. Sonra nə oldu? Gəldilər bizim nümayəndələrə yaxınlaşıb dedilər ki, öz namizədliyinizi geri götürün. Gələn il biz sizə kömək edərik, amma indi geri götürün. Mən bu üç gün ərzində Nyu-Yorkla birbaşa əlaqədə idim. Dedim ki, qətiyyən, axıra qədər, lap bir il çəksə, biz orada bu səsvermədə iştirak edəcəyik. Bir il çəksə, biz Təhlükəsizlik Şurasının işini iflic vəziyyətə sala bilərik. Ancaq ondan sonra həmin o rəqib ölkəyə göstəriş verildi, o, namizədliyini geri götürdü. Bu, nəyin bahasına oldu? Çünki əksər ölkələr bu sistemdən beziblər, yorulublar. Bizə səs verənlər də vaxtilə bizim kimi müstəmləkə olublar, əziliblər, soyulublar, talan ediliblər. Daha artıq onların da səbri tükənib".

Çox maraqlıdır, Prezidentin adını xüsusi ştrixlə vurğuladığı həmin ölkə hansıdır?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, cənab Prezidentin haqqında söylədiyi ölkə Sloveniyadır: "Azərbaycan 2011-ci ildə BMT Baş Məclisinin Prosedur Qaydalarının 142-ci bəndinə görə, 2012-2013-cü illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə Şərqi Avropa dövlətləri qrupundan namizədliyini irəli sürmüşdü. İlkin turlarda Azərbaycanın rəqibi öncə Macarıstan, daha sonra isə Sloveniya dövləti oldu. 15-ci turun nəticələrinə görə namizədlərin toplamalı olduğu 129 nümayəndəliyin səsindən Azərbaycan 116 nümayəndəliyin, Sloveniya isə 77 ölkənin səsini toplamışdı. Prezidentin haqqında danışdığı Azərbaycanın namizədliyini geri götürməsi təklifi Sloveniyanın xarici işlər naziri Samuel Jbogar tərəfindən irəli sürülmüşdü, 3 gün davam edən prosesdən sonra, 16-cı turda Azərbaycan Sloveniya üzərində şərtsiz üstünlük qazanaraq qələbə üçün tələb olunan 129 səsdən də çox - 155 səs əldə etmişdi. 16 turun səsvermədə nəticəsinə görə BMT-yə üzv 193 dövlətdən, Rusiya Federasiyası da daxil, 155-i Azərbaycana səs verdi, 24 nümayəndə heyəti bitərəf qaldı, 13 nümayəndə heyəti isə Sloveniyaya səs verdi. Beləliklə, Azərbaycan 2011-ci il oktyabrın 24-də BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə inamlı qələbə qazandı. Bunun digər ölkələr tərəfindən həzm olunmamasının əsas səbəbi Azərbaycanın Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə olması idi. BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv dövlət kimi və bu dövlətin rəhbəri kimi İlham Əliyevin sədrliyi ilə 2012-ci ilin may ayında Təhlükəsizlik Şurasının iclasının keçirilməsi Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biri olmaqla, Azərbaycanın beynəlxalq aləmdə çəkisinin artması, Azərbaycanın dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, söz sahibi olması ölkəmizin regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas oyunçularından birinə çevrilməsinin etirafı idi".

*"Azərbaycanın namizədliyini geri götürməsi təklifi Sloveniyanın xarici işlər naziri Samuel Jbogar tərəfindən irəli sürülmüşdü"*

***Məhəmmədəli QƏRİBLİ***

---

**"İndi anti-Azərbaycan dairələr, xaricdəki dairələr artıq açıq deyirlər ki, bizdə ənənəvi müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr var ki, onların da kitabı bağlanıb, onlara ümid bəsləmək olmaz".**



# Azərbaycan Prezidentinin əlində əvvəllər radikallara dəstək vermiş bəzi beynəlxalq mərkəzlərdən gəlmiş ilginc məlumat...

***Seyid Camal Əzimbəyli:*** *"Bir vaxtlar radikal müxalifətə ümid bəsləyən müəyyən xarici dairələr artıq onlara dəstək vermirlər"*

Bunu Bakı Dövlət Universitetinin 100 illiyinə həsr olunmuş yubiley tədbirində Prezident İlham Əliyev bildirib.

Dövlət başçısı qeyd edib ki, bu gün Azərbaycanda xalqın iradəsi hökm sürür və dövlətimiz dünya miqyasında müasir, öz tarixinə, ənənələrinə sadiq, sürətlə inkişaf edən dinamik ölkədir: "Hər kəs görür ki, heç kim bizim işimizə müdaxilə edə bilməz. Nə qədər çalışsalar, nə qədər əlləşsələr, nə qədər yalan-böhtan yaysalar, yapışmır bizə. Çünki xalq bizi dəstəkləyir və sonuncu rəy sorğuları onu göstərir. Əhalinin mütləq əksəriyyəti bizim siyasətimizi dəstəkləyir. Əhalinin mütləq əksəriyyəti bizə alternativ görmür və kim ola bilər bu alternativ? Hətta havadarları artıq onlardan üz döndərmişlər. Biz bunu dəqiq bilirik. Mən indi bu auditoriyada bəzi operativ məlumatları da bölüşə bilərəm sizinlə, Azərbaycan xalqı ilə. İndi anti-Azərbaycan dairələr, xaricdəki dairələr artıq açıq deyirlər ki, bizdə ənənəvi müxalifət yoxdur, ayrı-ayrı satqın dəstələr var ki, onların da kitabı bağlanıb, onlara ümid bəsləmək olmaz. Ona görə onlara pul təminatı da azalıb, ona görə çabalayırlar".

Görünən odur ki, ənənəvi radikal müxalifət artıq xaricdən də dəstəyini itirib. Onlara etimad göstərilmir.

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, əvvəllər radikallara dəstək verən qüvvələr artıq bunu etmirlər: "Prezident bununla bağlı çox vacib məqamları qeyd etdi. O həqiqətən də haqq olanı, doğru olanı qeyd etdi. Bir vaxtlar radikal müxalifətə ümid bəsləyən müəyyən xarici dairələr artıq onlara dəstək vermirlər. Onların yaşadıqları ölkələrin hüquq-mühafizə orqanları mühacir alverinə görə belələri barədə ölçü götürürlər. Onları cinayətkar şəbəkənin üzvləri kimi məsuliyyətə cəlb edirlər. Beləl变lərinə, əlbəttə ki, heç xarici dairələr də artıq dəstək vermirlər. Çünki bu qüvvələrin heç bir perspektivi yoxdur. Perspektivi olmadığı üçün də artıq xarici dairələr də bunlara etimad göstərmirlər. O dərəcədə miskin durumdadırlar. Ona görə də ənənəvi müxalifətin heç bir perspektivi yoxdur".

*"Çünki bu qüvvələrin heç bir perspektivi yoxdur"*

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanda demoqrafiya böhranı fəlakət həddinə çatır - orduda əsgər qıtlığı problemi kəskinləşir

**Dağlıq Qarabağ münaqişəsinin dinc müstəvidə həlli istiqamətində atılan addımlar hələ də Ermənistanın qeyri-konstruktiv yanaşması üzündən hansısa nəticə vermir. Belə vəziyyətdə savaş ehtimalının yüksəlməsi barədə edilən xəbərdarlıqların da sayı artır. Məsələ ilə bağlı "168 Jam"a müsahibəsində Qarabağ Müharibəsi Veteranları İttifaqının sədri Qriqor Qriqoryan bildirir ki, İrəvan Bakının əsəblərini artıq tarıma çəkir, bu da savaşı qaçılmaz edir.**

O, 2018-ci il ərzində Azərbaycan ordusunun Naxçıvan istiqamətində minlərlə hektar ərazini tutduğunu bildirir və qeyd edir ki, bu da Azərbaycana əlavə mühüm üstünlüklər qazandırıb. Qriqoryan Azərbaycanın hazırda döyüş fəaliyyətinə hazırlaşdığını deyib:"Məncə, yaxın 3-4 ay ərzində Azərbaycan tərəfi fəaliyyətə başlaya bilər. Əsas hərbi fəaliyyət istiqaməti Naxçıvan olacaq". Eyni narahatlığı erməni politoloq Armen Minasyan da bölüşür. O bildirir ki, əslində, İrəvanın yanlışlıqları üzündən Bakı həm hərbi, həm də diplomatik müstəvidə mühüm üstünlüklər qazanıb: "Bunu real vəziyyət də təsdiq edir. Məsələn, Ermənistan baş nazirinin saytında artıq qeyd edilib ki, Ermənistan və Azərbaycan Dağlıq Qarabağa nəzarət uğrunda müharibə edir. Artıq 30 ildir Ermənistan, diaspor, erməni lobbisi mübarizə aparır ki, bütün dünya Dağlıq Qarabağ münaqişəsinin nəinki Ermənistan və Azərbaycan arasında ərazi mübahisəsi olduğunu, həmçinin "millətlərin öz müqəddəratını təyin etmə hüququ"nun ömürlük mübarizəsi olduğunu qəbul etsin. Amma indi Paşinyan hakimiyyəti faktiki olaraq münaqişənin Azərbaycan və Erəmnistan arasında getdiyini təsdiqləyir". O, bu halda Azərbaycanın hərbi üstünlüyünə həm də diplomatik qələbələrin əlavə olunduğunu vurğulayır.

Ermənistanın "1in.am" saytı isə yazır ki, yaranmış vəziyyətdə Azərbaycan müharibəyə başlasa, Ermənistanı ciddi problemlər gözləyir: "Səbəb çox sadədir. İlk növbədə ordu və demoqrafiya amili burada özünü qabarıq göstərir. Söhbət ondan gedir ki, Azərbaycan əhalisində və müvafiq olaraq ordusunun şəxsi heyətində artım var. Ermənistanda isə əks prosesdir. Bu fonda Rusiya vətəndaşlığı ilə bağlı vəziyyət xüsusi diqqət cəlb edir. 2019-cu ilin yanvar-sentyabr aylarında 285 min ənəbiyə Rusiya vətəndaşlığı verilib. Onlardan 17 mini Ermənistan vətəndaşıdır. Rusiya Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, Rusiya vətəndaşlığı alanlar arasında ukraynalılar ilk pillədə qərarlaşıb (146) min. Qazaxıstan ikinci (35 min), Tacikistan üçüncü (30 min), Ermənistan isə dördüncü (17 min) yerdədir. Ukraynalıların siyahıya liderlik etməsinin Kiyevlə Moskva arasındakı münaqişədən qaynaqlandığı hesab olunub. Rusiya siyasi baxımdan ukraynalılara üstünlük verir. Qazaxıstanda rus əsilli vətəndaşların çox yaşadığını nəzərə alsaq, bunu rusların "öz evlərinə qayıdışı" olaraq qəbul etmək mümkündür. Tacikistanda sosial-iqtisadi vəziyyət taciklərin Rusiyaya axınına zəmin yaradır. Burada əsas məqam Ermənistandır.

İnqilab edən və demək olar ki, baş nazir Nikol Paşinyanın hər gün inkişafdan danışdığı Ermənistandan vətəndaşlar niyə qaçır və başqa ölkələrin vətəndaşlığını almağa çalışırlar? Proqnozlara görə, qarşıdakı üç il ərzində Rusiya iqtisadiyyatını durğunluq gözləyir. İtaliyanın "UniCredit" bankının hesablamalarına görə, 2019-2020-2021-ci illərdə Rusiyanın iqtisadi artımı 1,4 faiz olacaq. Bu, ölkədə iş yerlərinin və gəlirin azalması ilə nəticələnə bilər. Buna baxmayaraq, digər ölkələrin - Ukrayna, Qazaxıstan, Tacikistan, Ermənistan - vətəndaşlarının Rusiya vətəndaşlığını almağa can atması suallar doğurur. Üç ölkənin - Ukrayna, Qazaxıstan və Tacikistanın siyahıya başçılıq etməsinin səbəbi məlumdur. Bəs, Ermənistanın 17 min vətəndaşı niyə öz kimliyini cıraraq Rusiya vətəndaşı oldu? Demokratiya və insan haqlarının "qorunduğu" deyilən, hakimiyyətin "iqtisadi artım"dan danışdığı ölkənin vətəndaşlarını buna nə məcbur edir? İnsan haqlarının qorunmasının fundamental prinsiplərindən biri sosial müdafiədir. Bu gün Ermənistanın ən böyük problemi məhz budur: dağılmış iqtisadiyyat, kosmetik inkişaf və acların qaçışı. İndi ermənilərin ölkədən qaçması Ermənistanın bir dövlət kimi mövcudluğunu təhlükə altına qoyub. Ermənilər inqilabın olduğu və demokratikləşdiyi hesab olunan Ermənistandan ABŞ və Avropanın sanksiyaları altındakı Rusiyaya həmişəlik köçürlər. Hətta Rusiya pasportu almaq üçün ermənilərin arasında aşkar mübarizə gedir. O zaman sual yaranır, Ermənistanda demokratiyanın hansı faydası var? Ümumiyyətlə, real demokratiya varmı? Qanunun aliliyi təmin edilibmi? Sosial lift işləyirmi, zəhmətkeşlər, savadlı və dürüstlər üçün perspektiv mövcuddurmu? Təəssüf ki, xeyr. Ümidlərimiz böyük idi, lakin biz heç nə əldə edə bilmədik. Rusiyaya birdəfəlik köçən ermənilərin sayı Ermənistanda "məxməri inqilabın" hökmünü verir. Bütün bunlar Ermənistanın bir dövlət kimi sonunu yaxınlaşdırır. Təbii ki, əhalinin, xüsusən də gənclərin sayının azalması təhlükəsizliyə də birbaşa təsir edir. Faktdır ki, ordunun şəxsi heyətlə təmini problemi ciddiləşir. Onda sabah Qarabağ müharibəsi yenidən başlasa, bizi nə gözləyir? Vəziyyət faciəvidir və hakimiyyət bundan, görünür, hələ də lazımi nəticə çıxara bilmir".

Erməni nəşrinin yazdıqları əslində tam reallığı əks etdirir. Bu ölkədə demoqrafik fəlakət ordu amilinə də neqativ təsir göstərir. Bu arada Almaniyanın Federal Miqrasiya və Qaçqınlar İdarəsinin Ermənistanın ictimai-iqtisadi vəziyyəti ilə bağlı yayımladığı məruzə isə işğalçı ölkəni məhv olmaq perspektivi gözlədiyini təsdiqləyir.

Məruzədə deyilir ki, yalnız Rusiyanın və diasporun maliyyəsi hesabına yaşayan Ermənistanda hər il minlərlə insan ölkəni tərk edir: "1991-ci ildə 100 minlərlə insan Ermənistanı həmişəlik tərk etdi. Sonrakı üç ildə Qarabağda müharibə gedirdi və bunun nəticəsində 497,5 min vətəndaş miqrasiya etdi. Bu rəqəmlərin nədən ibarət olduğunu anlamaq əhəmiyyətlidir: bütün azərbaycanlılar Ermənistandan qovuldu, yaxud təqiblərdən yaxa qurtarmaq üçün qaçdılar. Bununla yanaşı, digər xalqların nümayəndələri, həmçinin ruslar və yəhudilər də ölkəni tərk etdilər. Nəticədə bu gün respublikanın 96 faiz əhalisi ermənilərdən ibarətdir. Onların ölkəni tərk etməsi bu gün də davam edir. Belə vəziyyətdə baş nazir Nikol Paşinyanın önündə həll edilməli problemlər var. Xüsusilə yoxsulluq, korrupsiya və oliqarxiya kimi. Bununla yanaşı, ölkənin inkişafını tamamilə dayandıran Dağlıq Qarabağ münaqişəsi həll edilməli və Azərbaycan ərazilərinin işğalı dayandırılmalıdır. Ermənistan Qarabağ müharibəsində də etnik təmizləmə apardığı və azərbaycanlıları Azərbaycanın digər rayonlarına köçməyə məcbur etdiyi üçün günahkardır. Öz növbəsində, bu gün Ermənistan hakimiyyəti Suriyadan gələn erməni qaçqınları Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz olaraq köçürür, beləliklə, işğal edilmiş Dağlıq Qarabağda pozitiv demoqrafiya görüntüsü yaratmağa çalışır. Buna paralel olaraq, Ermənistanın özündə emiqrasiya stabil olaraq yüksək səviyyədə qalır".

Bu xüsusda rusiyalı ekspert Yeqor Mixaylov çox maraqlı fikirlər səsləndirir: "Ermənistandakı demoqrafik və sosial böhran davam edir. Bu isə silahlı qüvvələrdə döyüş hazırlığının səviyyəsinə də mənfi təsir göstərir". Rusiyalı ekspert bu gün Ermənistandan və işğal altındakı Dağlıq Qarabağdan yüzlərlə erməni gəncin ilk fürsətdəcə xaricə üz tutmağa hazır olduğunu bildirir: "Qonşulara qarşı düşmənçiliyin sonu yoxdur. Sadə ermənilər artıq hər şeyi dərk edir, rəsmi mövqe ilə üst-üstə düşməyən nəticələr çıxarırlar. Onların qənaətincə, yoxsulluq və səfalətin tüğyan etdiyi Ermənistanda uşaq sahibi olmaqdansa, baş götürüb xaricə getmək məsləhətdir. Hazırkı demoqrafik böhran ordunun döyüş qabiliyyətinə də təsir göstərir. Dağlıq Qarabağ münaqişəsinin başlamasından sonra artıq bütöv bir nəsil dəyişib. Bugünkü nəslin əvvəlkilər qədər sağlam olmaması üzündən bir sıra döyüş tapşırıqlarını yerinə yetirmək iqtidarında olmamasına görə erməni əsgərlərinin döyüş hazırlığında kəskin geriləmə göz qabağındadır. Bunun səbəbi də iqtisadiyyatın acınacaqlı vəziyyəti üzündən güzəranı təmin edəcək qazanc mənbələrinin olmaması nəticəsində bir çox valideynin övladlarını lazımınca qidalandırmamasıdır". Miqrasiya, demoqrafiya problemini həll edə bilməyən Ermənistan ordusunun perspektivdə əsgər, hərbçi qıtlığı problemi ilə daha kəskin şəkildə üzləşəcəyi istisna edilmir.

Daha bir maraqlı məqam ordunun özündəki problemlərlə bağlıdır. Ölkədə fəaliyyət göstərən Helsinki Vətəndaş Assambleyasının yerli komitəsi də dəfələrlə bəyan edib ki, hərbi komissarlıqlar xəstə və yararsız çağırışçıları zorla hərbi xidmətə göndərir. Assambleyanın Vanadzor ofisindən verilən bəyanatlarda o da vurğulanır ki, Ermənistan ordusunda əsgər ölümünün sayı yenə kütləvi xarakter daşıyır. Ölkədəki "Əsgər anaları" İctimai Birliyi və digər qeyri-hökumət təşkilatları da faktları tədqiq edərək bildirirlər ki, orduda nizam-intizam pozuntularının, fərariliyin, ölüm hallarının, digər bu kimi mənfi tendensiyaların miqyası durmadan genişlənir. Ümumiyyətlə, araşdırmalar göstərir ki, hər keçən gün Ermənistan silahlı qüvvələrində fərarilik, ölüm, döyülmə, rüşvət alma, korrupsiya, intihara cəhdetmə, intihar, təcavüz və digər nizamnamədənkənar halların sayı artır. Bütün bunlar, həm də orduda çoxsaylı itkilərin yaşanmasına gətirib çıxarır. Özü də bu itkilərin əksəriyyəti qeyri-döyüş şəraitində baş verir. Məhz bu vəziyyətdə Qarabağ savaşının yenilənməsi halında erməni tərəfini böyük zərbələr gözləməsi düşmən ölkənin özündə də açıq şəkildə vurğulanır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Rusiya da Azərbaycanla münasibətlərin inkişafını prioritet istiqamətə çevirir

**Bugün Rusiya və Azərbaycan arasında münasibətlərin kifayət qədər rəvan müstəvidə inkişaf etdiyi, hər iki ölkənin qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsində xüsusi maraqlı tərəf kimi çıxış etdiyi özünü qabarıq şəkildə büruzə verməkdədir.**

Belə görünür ki, qarşıdakı dövr ərzində tərəflər arasında əlaqələrin inkişafı strateji tərəfdaşlığın inkişafına da mühüm töhfə verəcək.

Bu məsələdə, heç şübhəsiz ki, birinci vitse-prezident Mehriban Əliyevanın son Rusiya səfəri də mühüm rol oynayıb.

Qeyd edək ki, Azərbaycan tərəfi Mehriban Əliyevanın Rusiyada görüşlərindən və burada ən yüksək səviyyədə qarşılanmasından məmnun qalıb. Bu xüsusda prezident İlham Əliyev Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən bir sıra maraqlı fikirlər səsləndirib: "Mehriban Əliyevanın Moskvaya başa çatmış rəsmi səfəri də bizim münasibətlərin yüksək səviyyədə olmasını bir daha təsdiq etdi. Biz bu səfəri çox yüksək qiymətləndiririk. Başa düşürük ki, bu, beynəlxalq siyasətdə görünməmiş hadisədir, dövlətdə birinci şəxs olmayan adam prezident tərəfindən, özü də dünyanın aparıcı ölkəsinin prezidenti və dünya siyasətçiləri arasında bir nömrəli prezident tərəfindən ən yüksək səviyyədə qəbul edilir. Zənnimcə, bu təkcə mənim fikrim deyil, rəhbərlərin böyük əksəriyyətinin fikridir. Biz dəvət faktının özünü, münasibətlərin səviyyəsini, Mehriban Əliyevanın şəxsən prezident tərəfindən ali "Dostluq" ordeni ilə təltif edilməsini və bu təltifdən sonra deyilən sözləri çox yüksək qiymətləndiririk. Biz bütün bunları çox yüksək qiymətləndiririk və əlbəttə, şadıq ki, ölkələrimiz arasında münasibətlər bu cür yüksək səviyyəyə çatıb. Əlbəttə, hökumətin sədri ilə, Federasiya Şurasının sədri ilə görüşlər də çox konstruktiv, zəngin olub və həmçinin regionlararası yubiley forumunun keçirilməsi və Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində "Azərbaycan" pavilyonunun açılması - bütün bunlar bizim əlaqələrin möhkəmlənməsi işində çox mühüm addımlardır. Əminəm ki, növbəti il də səmərəli olacaq".




Rusiya mediasının yazdıqlarından, ekspert dairələrinin səsləndirdiyi fikirlərdən belə bəlli olur ki, şimal qonşumuzda da səfərdən, onun nəticələrindən kifayət qədər məmnun qalıblar. Məsələn, politoloq Oleq Kuznetsov bu xüsusda bildirir: "Ən vacib məqamlardan biri də odur ki, dövlət xadimi humanitar məsələlərin müzakirəsi üçün qonşu ölkəyə gəlir. Bu, sözügedən məsələ üçün düşünülə biləcək ən yüksək səviyyədə atılmış addım idi. Bu, de-yure rəsmi səfər xarakteri daşımasa da, de-fakto rəsmi səfər statusu daşıyırdı. İndi başa düşürəm ki, hər hansı bir ölkədə vitse-prezident olmaq təkcə daxili siyasi səbəblərə görə deyil, həm də xarici əlaqələr baxımından çox əlverişli ola bilər.

Mehriban Əliyeva Moskvada ən yüksək səviyyədə qarşılandı. Rusiyanın baş naziri Dmitri Medvedyevlə görüşü və Rusiya prezidenti Vladimir Putinin şəhərətrafı iqamətgahında qəbulu bunun sübutudur. Mehriban Əliyeva bir daha uğurla sübut etdi ki, dünya KİV-ləri onu dünyanın ən intellektual siyasətçi xanımlarının top beşliyinə təsadüfən aid etmirlər. Əminəm ki, müstəqil siyasətçi olaraq Moskvaya etdiyi ilk rəsmi səfəri çərçivəsində o, hər kəsdə yaxşı təəssürat oyatdı".

Kuznetsov birinci xanımın Moskva səfərini daha iki mühüm aspektdən analiz edib: "Birincisi, Vladimir Putin şəxsən özü onu "Dostluq" ordeni ilə təltif etdi. Bu təltiflə bağlı qərar bu ilin avqustunda imzalansa və Putinin bu ordeni Rusiya səfiri ilə göndərmək imkanı olsa da, o bunu şəxsən özü etmək istədi. Bu isə o deməkdir ki, Mehriban Əliyevanın səfərinə son 3 ay ərzində hazırlıq görülüb. İkinci aspekt, Mehriban Əliyevayla Vladimir Putinin görüşündə Rusiya prezidenti Azərbaycan prezidenti İlham Əliyevin 20 dekabrda baş tutacaq Sankt-Peterburqa işgüzar səfərini elan etdi. Mənim bu təxminlərim doğrudursa, dekabr görüşündə tərəflərin müzakirə edəcəyi əsas siyasi sual 10-11 oktyabr tarixində Aşqabadda İlham Əliyevin MDB ölkə başçılarının görüşündə Ermənistanda nasist cinayətkarların dövlət səviyyəsində qəhrəmanlaşdırılması olacaq. Nasizmin qəhrəmanlaşdırılması Rusiya qanunvericiliyində ekstremizmin bir növü kimi qəbul olunur. Bununla mübarizə dövlətin xüsusi xidmət orqanlarının borcudur. Əminəm ki, o günə qədər Armavirdə Njdenin qanunsuz qoyulmuş memorial lövhəsini vəhşicəsinə müdafiə edən erməni millətçilərinin hoqqabazlığı yoxa çıxacaq. Və bu, Putinin Azərbaycana növbəti gizli hədiyyəsi olacaq".

Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və soydaşlarla münasibətlər komitəsinin sədri Leonid Kalaşnikov isə "Moskva-Bakı" portalına müsahibəsində bildirib ki, Putinin özü Mehriban Əliyeva ilə görüşdə ona "Dostluq" ordeninin təqdim edilməsinin Azərbaycanda yüksək vəzifəli şəxs olması ilə birbaşa əlaqəli məsələ olmadığını, bunun Rusiya-Azərbaycan münasibətlərinə verdiyi dərin dəstəklə bağlı düşünülmüş qərar olduğunu deyib:

"Bir neçə ay əvvəl Mehriban Əliyeva ilə danışdım və doğrudan da onun Azərbaycanda rus dilinin və rusdilli məktəblərin qorunub saxlanmasına, inkişafına verdiyi töhfələr böyükdür, bu onun şəxsi əməyidir. Ölkələrimiz arasındakı münasibətlərin indiki kimi olması üçün həm Rusiya, həm də Azərbaycan tərəfindən müəyyən səylər göstərilməlidir. Azərbaycan prezidenti və birinci vitse-prezident tərəfindən bu səylər göstərilir. Xanım Əliyeva Rusiya ilə dost münasibətlərini sözlə deyil, əməllə göstərir. Bunun üçün ona minnətdarıq. Rusiyada bunu çox yaxşı başa düşürlər. Beləliklə, prezident Putin bu töhfəyə görə təşəkkürünü açıq şəkildə nümayiş etdirdi. Hər kəs Mehriban Əliyevanın Rusiyada necə qarşılandığını, ona hansı münasibət göstərildiyini gördü. Bütün prezidentlər belə qarşılanmır. Səfər iki dövlət arasında münasibətlərin hansı səviyyədə olduğunu bir daha sübut etdi".

Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev də görülən işlərin iki ölkənin qarşılıqlı münasibətlərinə böyük töhfə olacağını vurğulayır: "Hörmətli Mehriban xanım ən yüksək səviyyəli tədbirlərdə öz dövlətini təmsil etməklə Azərbaycanın müasir beynəlxalq imicini formalaşdırır, Rusiya prezidenti Vladimir Putinin ona şəxsən təqdim etdiyi "Dostluq" ordeni isə Mehriban xanımın dövlətlərarası əlaqələrin dəstəklənməsinə və inkişafına yönəlmiş fəaliyyətinin əhəmiyyətini vurğulayır. Bu sözlər hüquq bərabərliyi, mehriban qonşuluq və qarşılıqlı fayda prinsipləri əsasında strateji tərəfdaşlığa öz töhfələrini verən Rusiya-Azərbaycan Regionlararası Forumuna da aiddir.

Xatırlatmaq istəyirəm ki, müstəqil Azərbaycan xaricdə özünün ən birinci ticarət nümayəndəliyini məhz Rusiyada açıb. Bu baxımdan, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində hələ 1939-cu ildə tikilmiş milli pavilyonun respublikaya verilməsi çox məntiqli addımdır. Bu, regionlararası forumun əsas məqsədinə - ən müxtəlif səviyyələrdə Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlədilməsinə də aiddir. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva hər iki tədbirdə iştirak etmək üçün Moskvaya gəlmişdi. Bu, Mehriban xanımın Azərbaycanın birinci vitse-prezidenti statusunda Rusiyaya ilk səfəri idi. Ötən il Bakıda keçirilən Regionlararası forumu Rusiya və Azərbaycan liderləri açdılar, bu dəfə isə forumun plenar iclasına Mehriban xanım Əliyeva və Federasiya Şurasının sədri Valentina Matviyenko sədrlik edirdi".

Bütün bunlar Rusiyanın Azərbaycanla münasibətlərin inkişafına indi xüsusi önəm verdiyini əyani surətdə nümayiş etdirir.

***Ramil QULİYEV***

# Prezident beş ildən sonra peşə axtarışı ilə üzləşəcək gəncləri xəbərdar etdi...

## *Kamran Əsədov: "20-30 ildən sonra bu gün mövcud olan bəzi ixtisaslar tamamən sıradan çıxacaq"*



## *"...bu istiqamətdə heç bir araşdırma..."*

**"Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da". Bu sözləri ölkə Prezidenti cənab İlham Əliyev iştirak etdiyi Bakı Dövlət Universitetinin 100 illik yubiley tədbirində çıxışı zamanı deyib. Prezident çıxışı zamanı tələbələrə məsləhət görüb ki, onlar dərslərini daha yaxşı oxusunlar. Bilik olmasa, diplom heç nədir:**

"Tələbələrə də sözüm odur ki, bilikli olsunlar. Bugünkü dünyada tanışlıqla, tapşırıqla oxumaq mümkün deyil. Sovet vaxtında belə bir söz var idi: "tapş", o, institutа "tapşla" daxil oldu. Əvvəllər sovet dövründə əsas məqsəd diplom almaq idi. Evlənmək üçün, yəni elçiliyə getmək üçün diplomu var, yoxsa yox? Hə, varsa, onda markası artır. Diplom heç nədir, bilin. Əgər bilik olmasa, savad olmasa, müasir dünyada bu, əhəmiyyətsiz bir şeydir. Bilik olmalıdır. Çünki indi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır".

Prezident qeyd edib ki, artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur: "Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Amma biz əhalisi artan ölkəyik. Sovet dövründəki 7 milyondan 10 milyona çatıb bizim əhalimiz. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar. Bilik, savad - onların yaxşı gələcəyini, təminatlı gələcəyini müəyyən edən budur. Vətənpərvər olmalıdırlar. Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq".

Prezidentin qeyd etdiyi kimi, zamanla bəzi peşələr sıradan çıxır və onları başqa sahələr əvəz edir. Nəzərə almaq lazımdır ki, 15-20 il öncə ilə müasir dövrün insanlarının həyata baxışı, intellekt səviyyəsi, eyni zamanda, İKT-nin inkişafı bir deyildi. Bu səbəbdən də zaman keçdikcə, bəzi peşələrə maraq azalır və onları yeni ixtisaslar əvəz edir.

Maraqlıdır, qarşıdakı 5 il ərzində hansı peşələr ləğv olunacaq?

Təhsil eksperti Kamran Əsədov "Bakı-Xəbər"ə açıqlamasında bunları qeyd etdi: "İlk növbədə qeyd edim ki, qəbul imtahanlarının nəticələrini təhlil edəndən sonra məlum oldu ki, bu il Azərbaycan bölməsində I qrupda abituriyentlər ən çox Bakı Ali Neft Məktəbinin "Neft-qaz mühəndisliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə", III qrupda Bakı Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", IV qrupda Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisaslarına üstünlük veriblər. I, II və IV qruplarda rus bölməsində bu il abituriyentlərin seçimi üstünlük veriblər. Digər ixtisaslara seçim bunlarla müqayisədə az olub.

Əvvəlki illərdə olduğu kimi, bu il də hər iki bölmənin orta statistik oğlan abituriyentinin istəyi ən çox "Riyaziyyat, fizika və mühəndislik" (I qrup) və "İqtisadiyyat və idarəetmə" (II qrup) ixtisaslarınadır. Orta statistik qız abituriyentin özündə humanitar ixtisasları birləşdirən III ixtisas qrupuna istəyi çox yüksəkdir. Azərbaycan bölməsində qız abituriyentlər, həmişə olduğu kimi, "iqtisad və idarəetmə ixtisaslarına" (II qrup) az maraq göstərirlər. Rus Azərbaycan bölməsi ilə eyni olub. III qrupda isə rus bölməsinin abituriyentləri Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili)" ixtisasına daha çox bölməsinin qız abituriyentlərinin isə həmin ixtisaslara istəkləri nisbətən yüksəkdir. IV ixtisas qrupunda oğlan və qızların istəkləri bir-birinə yaxın olsa da, qeyd etmək lazımdır ki, bu istəklər ixtisaslar üzrə fərqlidir. Burada qızlar tibb ixtisaslarına üstünlük verirlər. V ixtisas qrupunda oğlanlar daha çox idman ixtisaslarına meyl edirlər. Bu qrupda qabiliyyət tələb edən ixtisaslardan ən çox qızlar təsviri sənət müəllimliyi ixtisasını seçirlər.

Sözsüz ki, elə ixtisaslar var ki, doğrudan da əmək bazarında o istiqamət üzrə məzunlara ehtiyac yoxdur. Burada mütləq ali təhsilli mütəxəssis lazımdır. Məsələn, riyaziyyat, xarici dillər, ibtidai sinif və ümumiyyətlə, bütün ixtisaslar üzrə müəllim ixtisasları var. Düşünürəm ki, müəllim ali təhsilli olmalıdır. Bu, dünya təcrübəsində də belədir. Məsələn, Finlandiya orta məktəblərində magistraturanı bitirənlər ancaq orta məktəblərdə müəllim işləmək hüququ qazanırlar. Deməк, zaman dəyişib, tələblər başqadır.

Bir qayda olaraq, oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük verirlər".

Həmsöhbətimiz onu da əlavə etdi ki, dünyada belə bir tendensiya gedir, gələcəyin yeni ixtisasları formalaşır. Azərbaycanda gələcəyin ixtisasları nə ola bilər, bu haqda düşünən yoxdur: "20-30 ildən sonra bu gün mövcud olan bəzi ixtisaslar tamamən sıradan çıxacaqlar. Onun yerini isə başqa ixtisaslar alacaq. Ona görə də bunun araşdırılması lazımdır ki, bizdə 15-20 ildən sonra hansı ixtisaslara ehtiyac olacaq. Bu haqda düşünən yoxdur. Mən özüm Azərbaycanın əmək bazarına hansı ixtisaslar lazım olacaq, onu bilirəm. İstər elmdə, istərsə də kənd təsərrüfatında, iqtisadi həyatın bütün sahələrində, sosial həyatımızda dünya çapında gedən dəyişiklikləri izləyir və bilirik. Azərbaycanın əmək bazarına bu hansı dəyişikliklərlə təsir edəcək, 10-15 ildən sonra hansı ixtisaslara ehtiyac olacaq, biz bunu müəyyənləşdirməli, bilməliyik ki, strateji planımız olsun. Təəssüf ki, bu istiqamətdə heç bir araşdırma və düşüncələr yoxdur.

Bu gün bizim nəinki yaxşı mühəndisə, hətta yaxşı ustaya da ehtiyacımız var. Ancaq diplom sahibinə yox, həqiqi mütəxəssisə. Bu tələbat getdikcə daha da artacaq.

Hesab edirəm ki, universitetdə daha lazımlı ixtisaslar yaradılmalıdır. Bir çox fakültədən məzun olan insanların sonrakı fəaliyyəti ilə bağlı analiz göstərir ki, 20-30 il ərzində oxuduqları ixtisaslar üzrə aldıqları təhsil bu gün və ya sabah lazımsız olur. Sovet dövründə iş yerinin çox olmasına baxmayaraq, bizdə neft ixtisasları populyar deyildi. Amma indi yüksək bal toplayanların yarıdan çoxu neft ixtisaslarını seçir. Bir vaxt bizdə populyar olmayan gömrük ixtisası da artıq dəbdədir. Eyni sözü İT mühəndisləri barədə də demək olar".

***Günel CƏLİLOVA***

# Prezident Azərbaycanda gender bərabərliyinə orijinal milli konseptual baxış tezisi ortaya qoydu...

***Buludxan Xəlilov:** "Ölkə başçısı gender bərabərliyinin ölkədə tətbiq edilməsi ilə bağlı milli-mənəvi bir konsepsiya ortaya qoydu"*

**Azərbaycan ailəsi milli mental dəyərlərə sadiq qaldıqca həm öz mövcudluğunu qoruya bilər, həm də inteqrasiya prosesini ağrısız, zədəsiz adlayar. Bu gün ölkəmizdə gender bərabərliyi haqqında çox danışılır və qadınların kişilərlə bərabər olması önə çəkilir.**

Əlbəttə, bəzi qüvvələr "qadın hüquqları"nı qabardaraq Azərbaycan cəmiyyətində qadınların dominant rol oynamalı olduğunu önə çəkirlər. Təəssüf ki, Avropa dəyərlərinə inteqrasiya tərəfdarı olan bu insanlar milli-mənəvi dəyərlərimiz olan böyüyə-kiçiyə sevgi, hörmət tendensiyasını qəbul etmək istəmirlər. Azərbaycanın ailə institutuna yönəlik olan bu səhv təbliğat cəmiyyətimizdə bir sıra aşınmalara səbəb ola bilər.

Hər zaman milli-mənəvi dəyərlərə, ailə modelimizin ənənələr üzərində inkişafına böyük önəm verən ölkə başçısı zaman-zaman bu məsələ ilə bağlı öz mövqeyini bildirir.

Noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söyləyərək bu aktual məsələyə öz mövqeyini bildirdi. "...Təcrübə, bilik və gənclərin dinamizmi, novatorluğu, yeniliyə, islahatlara meylliliyi - bu sintez Azərbaycanda var. Həm cəmiyyətdə, həm iqtidarda var. Biz ənənəvi dəyərlər üzərində dövlət qururuq, böyük-kiçik var. Bunu biz qorumalıyıq, gənclər də məni eşitsinlər, daim böyük-kiçik məsələsinə fikir versinlər. İndi bəzi ölkələrdə buna fikir verilmir. Qadınlarla kişilər arasında artıq fərq qoyulmur. Amma biz ənənəvi cəmiyyətdə yaşayırıq və yaşamalıyıq. Qadınlara hörmət etməliyik, biz onları qorumalıyıq, onları müdafiə etməliyik. Onlar bizi yox, biz onları. Gender bərabərliyi var, biz də bunu qəbul edirik. Amma biz ənənəvi düşüncədən kənarda yaşaya bilmərik və gənc nəsil də bunu bilsin. Yaşlılara hörmət olunmalıdır, yaşına görə. İndi bəziləri istəyirlər ki, bizim lüğətimizdən "ağsaqqal", "ağbirçək" sözləri çıxsın, necə ki, bəzi ölkələrdə. Onlara baxanda adam dəhşətə gəlir. Sonra da bizə deyirlər ki, gəlin bizə inteqrasiya edin. Mən bir dəfə demişəm, hələ Avropada o iqtisadi böhran baş alıb gedəndə dedim ki, biz haraya inteqrasiya etməliyik, böhrana? Haraya inteqrasiya etməliyik, "Stop İslam!" deyənlərə? Haraya inteqrasiya etməliyik, qadınla kişi arasında fərq görməyənə? Mən artıq daha dərinə getmək istəmirəm. Biz qətiyyən oraya inteqrasiya etməyəcəyik. Ona görə Azərbaycanda yaşlı nəsil, gənc nəsil bir yerdə olmalıdır, necə ki, ali məktəblərdə. Baxın, indi Bakı Dövlət Universitetində minlərlə gənc var, müəllim var. Müəllimlər biliklərini bölüşürlər, gənclər öyrənirlər, sabah onların yerini tutacaqlar. Belə inkişaf etməliyik. Əlbəttə, kadr islahatları bundan sonra da aparılmalıdır. Ancaq bu, kampaniyaya çevrilməməlidir" - deyə bildirən ölkə başçısı bununla da gəncliyə, Azərbaycanın sabahı olan insanlara öz tövsiyələrini verdi və inteqrasiyanın ağrılı fəsadlarını konkret nümunələrlə açıqladı.

Prezident gender bərabərliyinin təmin olunması ilə bərabər milli dəyərlərimizin, ailə ənənəmizin qorunması konsepsiyasını ortaya qoydu.



*"Prezident bu mesajı ilə həm ziyalı təbəqəsinin, ali məktəblərdə dərs deyən professor-müəllim heyətinin, həm də gənclərin üzərinə böyük məsuliyyət qoyur"*

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri Buludxan Xəlilov "Bakı-Xəbər"ə bildirdi ki, Prezidentin gəncliyə xitabən söylədiyi fikirləri BDU-nun 100 illik yubileyində səsləndirməsi təsadüfi deyildi. Milli-mənəvi dəyərlər sisteminin, ənənələrimizin formalaşmasında mühüm rol oynayan BDU-nun gənclərin həyatına təsirinin əvəzsiz olduğunu qeyd edən B.Xəlilovun sözlərinə görə, Prezident bu fikirləri səsləndirərkən ali məktəb müəllimlərinə, ziyalılara mesajlar ötürüb ki, siz gəncliyi yetişdirərkən bu məqamlara xüsusi fikir verin, çünki gənclik Azərbaycan xalqının tarixini, ailə ənənələrini, böyüyə-kiçiyə hörməti dərindən mənimsəməlidir. "Bu çıxışında Prezident BDU müəllimlərinə, ümumilikdə, ziyalılara mesajlar ötürdü ki, onlar gəncliyimizi milli-mənəvi dəyərlərə uyğun şəkildə yetişdirsinlər. O bununla müəllimlərə səsləndi ki, siz gəncliyi düzgün istiqamətə yönəltməlisiniz. İkinci bir tərəfdən də o zalda əyləşənlərin böyük bir hissəsi gənclər idi, Prezident bu fikirləri söyləməklə gənclərin özünü ayıldırdı ki, onlar tariximizi, ailə dəyərlərimizi, milli mentalitetimizi hər zaman qorusunlar və dəyərlərimizi Avropanın çürük, mənasız dəyərlərinə dəyişməsinlər. Prezidentin çıxışındakı digər məqam isə bu idi ki, o, bu fikirlərlə orta və yaşlı nəsillə gənclər arasında əlaqələrə diqqət çəkdi. O, yaşlı nəslə müraciət edərək demək istəyirdi ki, yaşlı nəsil gəncliyi düzgün istiqamətləndirməli, gənclik isə yaşlı nəslə hörmət, ehtiramla yanaşmalıdır. Bunların hamısı da ali təhsil müəssisələrinin auditoriyalarında formalaşır. Ona görə də Prezident bu mesajı ilə həm ziyalı təbəqəsinin, ali məktəblərdə dərs deyən professor-müəllim heyətinin, həm də gəncliyin üzərinə böyük məsuliyyət qoyur"

B.Xəlilovun sözlərinə görə, bu gün Azərbaycanın ailə dəyərlərini dağıtmaq istəyən, onu Avropaya "inteqarsiya" adı ilə məhv etmək yolunu tutanlar var, amma onların bu təbliğatının qarşısını Azərbaycan dövlətinin həyata keçirdiyi mənəvi-ideoloji iş kəsir: "Azərbaycan dünyaya inteqrasiya edir, bunun bir məqamı da qadın-kişi, gender bərabərliyindən ibarətdir. Amma gender bərabərliyi məsələsində biz tamamilə Avropaya bənzəyə bilmərik. Avropadakı qadın-kişi bərabərliyində bəzən qadın hüquqları o mənada tapdalanır ki, qadına hörmət Şərq dəyərləri səviyyəsində ola bilmir. Amma Azərbaycan Şərqin bir parçasıdır. Biz Şərqdə ilk demokratik Cümhuriyyət quran xalq olaraq nə qədər qadın-kişi bərabərliyini əsas götürsək də, qadına cəmiyyətdə, ailədə xüsusi hörmət olunur. Qadın həm ailədə, həm cəmiyyətdə xüsusi hörmətə layiq olmalıdır, ona hörməti göstərməsək, onda ağsaqqala, ağbirçəyə, böyüyə, qadına hörmət məsələləri bizim leksikonumuzdan çıxa bilər. Biz onda ənənəmizdən uzaqlaşa bilərik. Nə qədər dünyaya inteqrasiya etsək də, dünya ilə ayaqlaşsaq da, müasir dünyanın bir parçası olsaq da, bizim ənənəvi dəyərlərimiz var. Bizim milli dəyərlərimizdən biri qadına, ağsaqqala, ağbirçəyə, böyüyə hörmətdir ki, buna gənclik əməl etməli, bu institutun yaşadılmasına çalışmalıdır".

B.Xəlilov hesab edir ki, Azərbaycan Prezidentinin bu fikirləri Azərbaycan cəmiyyəti, xüsusən də gənclik üçün bir mesajdır. Gəncliyin öz milli-mənəvi dəyərlərimizə sahib olmasının vacibliyini deyən B.Xəlilovun sözlərinə görə, ailə dəyərlərinin qorunması, böyüyə hörmət göstərilməsi gəncliyin boynuna düşən işlərdəndir: "Ölkə başçısı gender bərabərliyinin ölkədə tətbiq edilməsi ilə bağlı bir milli-mənəvi konsepsiya ortaya qoydu. Azərbaycanda gender bərabərliyi qorunur, amma ondan əvvəl bizim qadına milli baxışımız gəlir. Əlbəttə, qadını qorumaq, onu müdafiə etmək kişilərin borcudur. Gərək qadın da ona göstərilən hörmətdən sui-istifadə etməsin. Qadın cəmiyyətimizin dayağıdır, anadır".

***İradə SARIYEVA***

# Universitet tələbələrinin siyasi vətənpərvərlik tərbiyəsində hansı problemlər üzə çıxdı - Prezident tövsiyələri...

***Rüfət Quliyev:*** *"Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması isə mənsub olduğu xalqın rifahının yüksəlməsi, ölkənin çiçəklənməsi deməkdir"*

**Bugün Azərbaycanda həyata keçirilən gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Gənclərin vətənpərvərlik tərbiyəsinin, milli şüurunun inkişafı, mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, asudə vaxtlarının səmərəli keçirilməsi və digər məsələlərin həlli üçün dövlət proqramları qəbul edilib, Prezident fərmanı və sərəncamları imzalanıb, beynəlxalq hüquq prinsiplərinə əsaslanan qanunvericilik bazası yaradılıb.**

Bilavasitə dövlətin diqqət və qayğısı nəticəsində Azərbaycan gəncliyi siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır, beynəlxalq elmi simpoziumlarda, idman yarışlarında Azərbaycanı layiqincə təmsil edir, üçrəngli bayrağını böyük iftixar hissilə yüksəklərə qaldırır.

Gənclərin sağlam, vətənpərvərlik ruhunda böyüməsi dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindəndir.

Azərbaycanda bütün dövrlərdə gənclərin vətənpərvər, milli ruhda böyüdülməsi, tərbiyə olunması aktual olub və günümüzdə də bu məsələ öz əhəmiyyətini qoruyub saxlayır. Çünki dövlətin gənclər siyasətinin təməlində məhz qeyd etdiyimiz məqam dayanır.

Noyabrın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə çıxışı zamanı da bu məsələyə toxunub. Prezident qeyd edib ki, gənclər milli ruhda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar: "Vətənpərvər olmalıdırlar. Bu olmasa, ölkəmizin gələcəyi olmayacaq. Bu olmasa, nə vaxtsa yenə də kiminsə təsiri altına düşüb yenə də müstəqillik arzuları ilə yaşayacağıq. Ona görə gənclərdə vətənpərvərlik çox güclü olmalıdır. Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi güclənsin".

Prezident İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə çıxışı tələbələrin vətənpərvərlik tərbiyəsində nə kimi rol oynayacaq?

Millət vəkili Rüfət Quliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, gənclər hər bir xalqın ayıq-sayıq və ən itigörən gözü, ümumiyyətlə, tarixin bütün dövrlərində inkişafın hərəkətverici qüvvəsi olub. Sağlam və intellektual gənc nəslin yetişdirilməsi dövlətin, xalqın əsas strateji hədəflərindən sayılıb. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması isə mənsub olduğu xalqın rifahının yüksəlməsi, ölkənin çiçəklənməsi deməkdir.

R.Quliyev bildirdi ki, Prezident hər zaman gənclərlə görüşəndə onların vətənpərvər, milli ruhda böyüməsinin vacibliyi barədə nitq söyləyir: "Ölkə başçısının BDU-nun 100 illik yubileyi ilə bağlı keçirilən mərasimdə gənclərlə bağlı çıxışının gənclərin vətənpərvər ruhda böyüməsində xüsusi rolu olacaq".

Həmsöhbətimiz onu da əlavə etdi ki, gənc nəslin sağlam və vətənpərvər ruhda böyüməsi, intellektual inkişafı hər bir dövlət və cəmiyyət üçün strateji əhəmiyyətli bir məsələdir: "Nəzərə almaq lazımdır ki, Azərbaycan əhalisinin təxminən 43 faizini yaşı 14-29 olan gənclər təşkil edir. Bunun özü həm çox böyük bir göstərici, həm də ölkənin güclü inkişaf enerjisi olduğunu sübut edən məqamlardan biridir. Azərbaycan dövləti haqlı olaraq bu güclü potensialı səfərbər etmək, gənclərin imkanlarından bəhrələnmək, həm də gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsi istiqamətində bütün mümkün addımları atmaqdadır. Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir",

Millət vəkilinin sözlərinə görə, dövlət proqramlarında hərbi-vətənpərvərlik tərbiyəsi işinə xüsusi yer ayrılıb. Onun sözlərinə görə, bu işlə bilavasitə məşğul olanların üzərinə çox böyük məsuliyyət düşür: "Ölkəmizdə fəaliyyət göstərən ayrı-ayrı təşkilatların əsas məqsədi böyüməkdə olan gənc nəsli bu işə cəlb etməkdir. Yəni gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi ölkəmizin siyasətinin əsasını təşkil edir. Mən sevinirəm ki, respublikamızda müasir tələblərə cavab verən idman qurğuları tikilərək gənclərin istifadəsinə verilib.

Bu idman ocaqları gənc nəslin sağlamlığının qorunmasına xidmət edir. Azərbaycan Ordusunun əsasını təşkil edən isə, şübhəsiz ki, gənclərdir. Onların fiziki sağlamlığı Vətənimizin keşiyində dayanmağa imkan yaradır. Qeyd edim ki, gənclərin orduya hazırlığı istiqamətində aparılan işlər alqışalayiqdir. Bu səpkidə keçirilən tədbirlər ictimaiyyət tərəfindən çox böyük razılıqla qarşılanır. Dövlətimizin gənclərə göstərdiyi qayğı onların maddi və mənəvi problemlərinin aradan qaldırılmasına təkan verir. Bütün bunlar isə gənc nəslin vətənpərvərlik tərbiyəsinə müsbət təsir göstərir.



*"Dövlətimizin gənclərə göstərdiyi qayğı onların maddi və mənəvi problemlərinin aradan qaldırılmasına təkan verir"*

***Günel CƏLİLOVA***

# Asiya nəhənglərinin diqqəti Azərbaycana yönəlir

**Bu gün Asiya nəhəngləri adlandırılan, dünyanın ən çox əhalisinə malik ölkə olaraq birinci və ikinci yerləri bölüşən Çinlə Hindistanın Azərbaycana maraqlarının artan xətt üzrə inkişaf etməsi özünü qabarıq şəkildə büruzə verir. Belə görünür ki, hər iki ölkə qarşıdakı dövr ərzində Azərbaycanla ilk növbədə iqtisadi müstəvidə əməkdaşlığı əhəmiyyətli dərəcədə dərinləşdirməkdə maraqlıdır.**

Digər tərəfdən, səslənən fikirlərdən o da bəlli olur ki, hər iki ölkə iqtisadi əməkdaşlığının dərinləşməsi fonunda Azərbaycana müxtəlif istiqamətlərdə, o cümlədən qeyri-neft sektoruna sərmayə yatırılmasına da xüsusi maraq göstərir. Məsələn, Hindistanın Azərbaycandakı səfiri Bavitlung Vanlalvavna qeyd edir ki, Hindistan şirkətləri indi Azərbaycana daha çox maraq göstərməyə başlayıb: "Hindistan şirkətləri Azərbaycanda əməkdaşlıqda maraqlıdır. Hindistan Sənaye Konfederasiyasının təmsilçilərinin Azərbaycana gəlişi də bunun təsdiqidir. Nümayəndə heyətinə turizm, ticarət, təhsil, enerji sahəsində fəaliyyət göstərən şirkətlər daxildir. Azərbaycan Hindistanın ixracında 4-cü ölkədir, ixracımızın 5,5%-i Azərbaycanın payına düşür. Əczaçılıq, informasiya texnologiyaları və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar mövcuddur. Ötən il Hindistandan Azərbaycana 40 min turist gəlib. Bu rəqəm ilbəil artır. Bu ilin 7 ayında Hindistandan Azərbaycana 33 min turist gəlib". Səfir bir daha qeyd edib ki, son illər ərzində Azərbaycana səyahət edən turistlərin sayında artım olub.

Hindistanla yanaşı, Çin də Azərbaycana sərmayə qoyuluşuna xüsusi diqqət yetirməyə başlayıb. Çinin "Global Times" qəzetinə müsahibəsində baş nazirin müavini Şahin Mustafayev də bunu xüsusi vurğulayır: "Bu il biz Çin şirkətlərinin Azərbaycan məhsullarına və ölkəyə investisiya qoymaq istəkləri ilə bağlı daha çox maraqlarının yarandığını görürük". Ş.Mustafayev qeyd edib ki, Prezident İlham Əliyev ona yeni vəzifəsinin icrası zamanı Azərbaycan-Çin iqtisadi əlaqələri təşviqini davam etdirməyi həvalə edib:"İqtisadiyyat və ticarət, nəqliyyat, turizm, kənd təsərrüfatı, rabitə və texnologiya sahələrində əməkdaşlığı daha da irəli aparmaq üçün iki dövlət başçısının siyasi iradəsinə, iki xalq arasındakı dostluq və xoş münasibətə, iki ölkənin iqtisadi potensialına əsaslanacam".

Xatırladaq ki, bu ilin yanvar-sentyabr aylarında Azərbaycanın Çinlə ticarət dövriyyəsi 1,7 milyard dollara çatıb ki, bu da keçən ilin eyni dövrü ilə müqayisədə 96% çoxdur. Azərbaycan və Çin arasında 2015-ci ildə "İpək Yolu İqtisadi Kəməri"nin yaradılmasının birgə təşviq edilməsi üzrə anlaşma memorandumu imzalanandan bəri iki ölkə arasında ticarət dövriyyəsi 2,5 dəfə artıb.

Azərbaycan Prezidenti İlham Əliyev və Çin rəhbəri Si Tszinpin arasında 2019-cu ilin aprelində Pekində keçirilmiş "Bir kəmər, bir yol" ikinci beynəlxalq forumu çərçivəsində keçirilmiş görüş ikitərəfli əlaqələrin inkişafına yeni təkan verib. Bu forum zamanı Azərbaycan Çin şirkətləri ilə dəyəri 800 milyon dollardan çox olan 10 ortaq sənəd imzalayıb. 2019-cu ilin yanvar ayından sentyabr ayına qədər Azərbaycana gələn çinli turistlərin sayı 64% artıb. İl ərzində bu rəqəmin daha da artması gözlənilir. Hindistan və Çinin Azərbaycana diqqətini artıran daha bir mühüm məqam isə beynəlxalq daşımalar sahəsində qurulan əməkdaşlıqdır. Məlumdur ki, Azərbaycan və Hindistan Orta Şərqi Qafqaz, Mərkəzi Asiya, Rusiya və Avropa ölkələri ilə birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi layihəsinin iştirakçılarından biridir. Bu layihənin reallaşdırılmasında məqsəd Hindistandan Rusiyaya, eləcə də Şimali və Qərbi Avropaya gedən yüklərin çatdırılma müddətini azaltmaqdır. Hazırkı marşrut, yəni Suveyş kanalı üzrə çatdırılma vaxtı 45-60 gündür, "Şimal-Cənub" vasitəsilə 14-20 gün olması gözlənilir. Dəhlizin Azərbaycan ərazisi üzərindən keçən hissəsində gözlənilən yükdaşıma həcmi birinci mərhələdə 3 milyon ton, ikinci mərhələdə 5-8 milyon ton, üçüncü mərhələdə 15 milyon ton təşkil edəcək. Müddət və səmərəlilik, eləcə də gəlir baxımından Azərbaycan və Hindistan "Şimal-Cənub"a xüsusi maraq göstərir. Çin üçün isə "Şərq-Qərb" marşrutu, o cümlədən onun əsas tərkib hissəsi olan Bakı-Tiflis-Qars dəmir yolu xətti böyük önəm kəsb edir. Burada bir məsələni də xatırladaq ki, Çinin elan etdiyi "Bir kəmər, bir yol" iqtisadi inkişaf strategiyası həm də Şərqdən Qərbə güzəştli şərtlərlə birbaşa malgöndərmələr üçün ticarət dəhlizinin yaradılmasını nəzərdə tutur. Onun başlıca vəzifəsi Çindən və Cənub-Şərqi Asiyanın digər ölkələrindən Avropaya yüklərin daşınmasıdır. Yəni bu dəmir yolu qitələrarası daşımalar üçün böyük imkanlar yaradır. Yeri gəlmişkən qeyd edək ki, Çin məhsullarının Avropaya ixracında bundan sonra Azərbaycan ərazisindən daha geniş şəkildə istifadə etmək qərarına gəlib. Söhbət ondan gedir ki, Çinin ilk yük qatarı elə bu günlərdə Bakı-Tiflis-Qars dəmir yolu ilə Avropaya yola salınıb. Çinin Sian şəhərindən yola düşən və Bakı-Tiflis-Qarsla Ankaraya çatan "China Railway Express" yük qatarı Türkiyədən Avropaya çatıb. 42 konteynerdən ibarət "China Railway Express" blok qatarı İstanbul boğazından keçməklə polad magistrallar üzərində Avropaya hərəkət edən ilk yük qatarıdır. Bakı-Tiflis-Qars dəmir yolu xətti Çinlə Türkiyə arasında yükdaşımaların müddətini 1 aydan 12 günə endirib. Məhz bu da Çinin Azərbaycanın nəqliyyat infrastrukturuna marağını artırır. Xatırladaq ki, dünyanın ən böyük iqtisadiyyatına malik ölkələrdən olan Yaponiya da Çindən sonra öz məhsullarını Azərbaycan üzərindən dünya bazarlarına çıxarmağa başlayıb. Artıq Yaponiyanın Mie prefekturası ilə "HIS Co. Ltd" şirkəti arasında yapon ərzaq məhsullarının Azərbaycan vasitəsilə dünya bazarlarına çıxarılması məqsədilə strateji əməkdaşlıq müqaviləsi də imzalanıb.




**Bütün bu qeyd edilənlər bir daha göstərir ki, Asiyanın iqtisadi nəhəngləri üçün Azərbaycan artıq xüsusi diqqət mərkəzində yer almağa başlayır. Hərtərəfli inkişaf edən əlaqələr isə Azərbaycana yeni böyük iqtisadi dividendlər vəd etməklə yanaşı, onun beynəlxalq miqyasda nüfuzunu da əhəmiyyətli dərəcədə artırır.**

*Tahir TAĞIYEV*

Ölkədə yas mərasimlərində israfçılığın aradan qaldırılmasına yönəlmiş müzakirələr cəmiyyət tərəfindən birmənalı müsbət qarşılanır. Çünki dəfn mərasimində, ehsan süfrəsində və qəbir daşlarının hazırlanmasında müşahidə edilən israfçılıq uzun illər az qala "adət-ənənələrin dəyişməz rəmzləri" kimi qarşılanıb.

# Yas mərasimlərində israfçılıq - problem ictimai gündəmdə...

*İlqar Hüseynli: "...özünü yeyib-içmək məclisində deyil, yasda hiss etməlidir"*



Son dövrlərdə bölgələrdən paytaxta qədər hər yerdə dini maarifləndirmə vasitəsilə kütləvi təşviqat aparılır, bu məsələ ilə bağlı dini hökmlər və müqəddəs kitabın tələbləri əhaliyə çatdırılır.

Yas mərasimlərində israfçılığın qarşısının alınması istiqamətində bölgələrdə və paytaxt ərazisində müəyyən işlər görülməsinə baxmayaraq, bu sahədə problem hələ də həll olunmamış qalır.

Bu sahədə qeydə alınan problemin həll olunması üçün sərt tədbirlərin görülməsi nəzərdə tutulur. Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov media nümayəndələrinə açıqlamasında qeyd edib ki, Azərbaycanda yas mərasimlərində israfçılığın qarşısının alınmasının iki forması müəyyənləşdirilib: "Bakının əksər yerlərində yas mərasimi ilə bağlı məsələlər öz həllini tapıb. Hazırda Azərbaycanda yas mərasimləri ilə bağlı müzakirələr davam etdirilir. Yas mərasimlərində israfçılığın qarşısının alınması üçün birinci forma qanunla sərt şəkildə, digəri isə təbliğat yolu ilədir. Hələlik bu məsələdə təbliğat yoluna üstünlük verilir. Təbliğatla bu məsələlərin getdikcə sadələşdirilməsi, bərabərləşdirilməsi nəzərdə tutulur. Zənginliyi və kasıblığına fərq qoyulmadan, tanınmış ictimai xadimlər və milli qəhrəmanları çıxmaq şərtilə, yas mərasimləri eyni səviyyədə olmalıdır".

Maraqlıdır, yas mərasimlərində israfçılığın qarşısı sərt şəkildə necə alına bilər?

Sosial sahə üzrə ekspert İlqar Hüseynli bizimlə söhbətində qeyd etdi ki, problemin həlli üçün ictimai qınaq tətbiq olunmalıdır: "Uzun illərdir bu məsələ müzakirə olunur. Artıq bir sıra bölgələrdə faktdır ki, bəzi xeyir-şər məclislərində biabırçı süfrələrlə üzləşirik. Bəzi yas mərasimləri var ki,

*"Yas mərasimlərində israfçılığın qarşısının alınması üçün ictimai qınaq olarsa və maarifləndirmə sistemli şəkildə həyata keçirilərsə, problemin tezliklə həllinə nail olarıq"*

yas mərasimləri təntənəli formada deyil, sadə şəkildə keçirilir. Bunun bütün ölkə üzrə keçirilməsi vacibdir. Yas mərasimlərində hökm sürən israfçılığa qarşı mübarizədə birinci növbədə maarifləndirmə işini önə vermək lazımdır. Bu işi vaxtında sistemli şəkildə qura bilməmişiksə, heç olmasa, indidən belə maarifləndirmə işlərini kütləviləşdirməliyik. Danılmaz orada təkcə spirtli içki çatmır. İsrafçılıq dinimizə, islamın gətirdiyi qaydalara nə qədər yasaqdırsa, digər tərəfdən, Azərbaycan mənəviyyatına, milli heysiyyatımıza da yad bir məqamdır. Ona görə də süfrələrimizi fironların süfrəsinə çevirməkdən əl çəkməliyik. İctimai qınaq olarsa və maarifləndirmə sistemli şəkildə həyata keçirilərsə, problemin tezliklə həllinə nail olarıq ".

Həmsöhbətimiz onu da əlavə etdi ki, yas mərasimlərində baş verən israfçılıq hallarının qarşısını almaq üçün birinci növbədə insan dini qayda-qanunları yaxşı bilməli və ona əməl etməlidir. Həmçinin, milli mentalitetini də bilməlidir. İnsanların özləri arasında bu istiqamətdə təbliğat, maarifləndirmə işləri getməlidir. Bu istiqamətdə insanlar arasında işləmək lazımdır. Hüzr yerinə gələn özünü yeyib-içmək məclisində deyil, yasda hiss etməlidir. Onun da əsasında məsələ öz həllini tapmalıdır. Bəzi regionlarda problem, bildiyiniz kimi, öz həllini tapıb. Yəqin ki, yaxın zamanlarda digər bölgələrdə də məsələ çözüləcək.

**Günel CƏLİLOVA**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Bakının Bibiheybət qəsəbəsində baş verən sürüşmə ilə bağlı quruma qarşı irəli sürülən ittihamlara cavab verib.

# AAYDA Bibiheybətdəki sürüşmə ilə bağlı ittihamlara cavab verdi



Agentliyin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli "Trend"ə açıqlamasında bildirib ki, noyabrın 25-də Bakı-Ələt-Astara avtomobil yolunun Bibiheybət məscidi yaxınlığında keçən hissəsində baş vermiş sürüşmə nəticəsində dağın yamacında yerləşən istinad divarının dağılması ilə əlaqədar olaraq yolun çökməsi hadisəsindən sonra yenə də sosial şəbəkələrdə və bəzi xəbər saytlarında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin gördüyü işlərə kölgə salan, agentliyin rəhbərliyi haqqında böhtan xarakterli, vətəndaşlar arasında bilərəkdən çaşqınlıq yaradan yalan və qərəzli məlumatlar paylaşılmağa başlanıb:"Məlumat üçün bildirək ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən sözügedən ərazidə noyabr ayının 7-də çatların yaranması aşkar edilib və bununla bağlı Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyi Nəzarət Dövlət Agentliyinə müraciət olunub. Əlavə olaraq əməkdaşlarımız tərəfindən nəzarət altında saxlanılan ərazidə noyabr ayının 24-də isə intensiv yağan yağışlar nəticəsində həmin çatların böyüməsi aşkar edilib. Sürüşmənin baş verə bilməsi ehtimalı ilə əlaqədar hadisədən 10 saat öncə, daha dəqiqi 24 noyabr axşam saat 7-8 radələrində yolda avtonəqliyyat vasitələrinin hərəkətinə tam məhdudiyyət qoyulması barədə agentliyin rəhbərliyi tərəfindən tapşırıq verilib. Təəssüflər olsun ki, ehtimallarımız özünü doğrultdu və 25 noyabr səhər saat 5-6 radələrində sürüşmə nəticəsində avtomobil yolunun bir hissəsi dağıldı. Lakin agentlik tərəfindən vaxtında qabaqlayıcı tədbirlərin görülməsi daha ağır fəsadların qarşısını almış oldu".

A. Nəcəfli qeyd edib ki, hadisədən dərhal sonra əraziyə agentliyin rəhbərliyi və əlaqədar bölmələrin rəhbərləri, həmçinin aidiyyəti qurumların əməkdaşları cəlb olunub. Ərazidə əlavə təhlükəsizlik tədbirləri görülüb və agentlik tərəfindən qərargah yaradılıb: "Qısa müddət ərzində sürüşmə nəticəsində bağlanan Bakı buxtası-3 küçəsinin açılması, həmçinin ərazidən keçən içməli su borusunun bərpası üçün yola tökülmüş torpaq qatının təmizlənməsinə start verildi. Hazırda da bu istiqamətdə işlər davam etdirilir.

Onu da bildirək ki, Bakı-Ələt-Astara yolunun 4-8-ci kilometrliyində Bibiheybət məscidi ilə Bayıl bazarı arasında olan yolun inşasına "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə Tədbirlər Planı" çərçivəsində Nəqliyyat Nazirliyinin sifarişi əsasında 2009-cu ildə başlanıb və 2010-cu ildə yekunlaşdırılıb.

Cari ilin mart ayında isə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən "Bibiheybət" məscidi istiqamətindən şəhərə doğru olan yolda əsaslı yenidənqurma deyil, yalnız təmir işləri aparılıb. Çünki bu ərazidə yol kənarında 75 metr uzunluğunda yol-memarlıq elementi olan bəzək divarı dağılmış, yolun hərəkət hissəsində deformasiya və çatlar müşahidə olunurdu. Bu isə öz növbəsində avtonəqliyyat vasitələrinin rahat və təhlükəsiz şəkildə hərəkətinə maneə yaradırdı. Aparılan işlər sadəcə olaraq bu maneənin aradan qaldırılmasına yönəlmişdi.

Sürüşmənin baş verməsinin daha dəqiq səbəbinin öyrənilməsi və ərazidə gələcəkdə bu kimi hadisələrin yaşanmaması üçün atılacaq addımların nədən ibarət olduğunu aydınlaşdırmaq məqsədi ilə aidiyyəti qurumlar tərəfindən agentliyin əməkdaşlarının iştirakı ilə yaxın müddət ərzində sınaq quyularının qazılmasına başlanacaq.

Lakin baş vermiş hadisə ilə bağlı bəzi kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə hadisənin təfsilatına varmadan, hadisənin baş vermə səbəbi araşdırılmadan, mütəxəssislərdən fikri öyrənilmədən qeyri-dəqiq, qeyri-peşəkar informasiyalar yayılıb, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin və onun rəhbərliyinin ünvanına əsassız ittihamlar irəli sürülüb.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi olaraq bundan təəssüf hissi keçirir və kütləvi informasiya vasitələrindən vətəndaşlar arasında bilərəkdən çaşqınlıq yaradan bu cür yalan və qərəzli məlumatlar yaymamağı xahiş edirik".

№ 211 (4109) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

28 NOYABR 2019-cu il

www.baki-xeber.com

# Yupiterin peykində böyük su buxarı aşkar edildi

**ABŞ-ın Aeronavtika və Kosmik Tədqiqatlar Milli Agentliyinin (NASA) Qoddard adına Kosmik Uçuşlar Mərkəzinin alimləri Yupiter planetinin "Europa" təbii peykində böyük su buxarı aşkar ediblər.**



"Science Alert" nəşri xəbər verir ki, astronomlar Havay adalarındakı Kek rəsədxanasının göy cisimlərinin atmosferinin kimyəvi tərkibini müəyyən etmək üçün spektroqrafdan istifadə etməklə aparılan 17 müşahidənin nəticəsində əldə edilən məlumatları təhlil ediblər. Onlar bu qənaətə gəliblər ki, su buxarının yaranması əvvəllər hesab olunduğu kimi o qədər də aktiv baş vermir. Onlar ayrı-ayrı intensiv püskürmə nəticəsində meydana gəlirlər. Qeyd olunur ki, hazırda peykdə maye suyun olması sübut olunmayıb, amma onun səthindən buxarlanan su bir neçə dəqiqə ərzində olimpiya hovuzunu doldurmağa bəs edər. NASA-nın qarşıdakı "Europa Clipper" missiyası 2023-cü ilədək Yupiter planetinin buzlu təbii peykinin səthini təfərrüatı ilə öyrənməyə imkan verəcək. Bu kosmik aparat təbii peyk ətrafında 45 dəfə dövr edərək kameralar, spektrometrlər və radarları vasitəsilə geniş tədqiqat aparacaq. İyirmi il əvvəl də NASA-nın "Qaliley" kosmik gəmisi və "Hubble" kosmik teleskopu bu göy cismində buz və su buxarının olması barədə məlumatlar əldə etmişdi.

## Elan

Şəki "AZER- TELEKOM" MMC-yə məxsus 3000018581 saylı VÖEN itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nəsimi rayonu, Nizami küçəsi, ev 103, mənzil 45-ə aid seriya MH № 101312 qeydiyyat vəsiqəsi (çıxarış) və texniki paspotu itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Nəsimi rayonu, Nizami küçəsi, ev 103, mənzil 59-a aid seriya RX № 0216098 çıxarış və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, 1297 saylı bağ evinə aid seriya RX № 0481599 çıxarış və texniki pasportu itdiyi üçün etibarsız sayılır.

"LOTOS CO" MMC "LOTOS CO" MMC hüququnu dəyişərək "LOTOS CO" Qapalı Səhmdar Cəmiyyətinə çevrildiyini bildirir.

İbrahimzadə Nərgiz Zakir qızına Azərbaycan Dövlət İqtisad Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Şükürov Şəbnəm Barat qızına Bakı Slavyan Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Novruzov Məmmədbəy Nuxbəy oğlunun adına, Xaçmaz rayonu, Xudat şəhərində yerləşən yaşayış evinə verilmiş çıxarış və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Əliyeva Ağcagül Valeh qızının adına, Binəqədi rayonu, Novxanı ərazisində yerləşən 999 e saylı bağ sahəsinə verilmiş 35681 nömrəli müqavilə itdiyi üçün etibarsız sayılır.

"AZAVS" MMC "AZAVS" MMC hüququnu dəyişərək "AZAVS" Qapalı Səhmdar Cəmiyyətinə çevrildiyini bildirir.

## "Azercell" il ərzində regionlarda 4G şəbəkəsini 364% artırdı

**Beynəlxalq araşdırmalara əsasən, "Azercell Telekom"un LTE şəbəkəsi ən yüksək keyfiyyət nümayiş etdirir.**

Azərbaycana yeni bağlantı erasını vəd edən və bu məqsədlə dünyanın yeni texnoloji nailiyyətlərini ölkədə ilk olaraq tətbiq edən "Azercell Telekom" 2019-cu il ərzində ölkə üzrə yüksək sürətli mobil internetin əhatəsini 364% genişləndirdi. Hazırda ölkənin 60-a yaxın bölgəsi "Azercell"in LTE şəbəkəsinin əhatə dairəsindədir və bu rəqəm gündən-günə yüksəlməkdə davam edəcək. Lider operator LTE şəbəkəsini gücləndirərək və genişləndirərək son bir ildə əhali əhatəsində 118%, coğrafi ərazi əhatə dairəsinisə 364% yüksəlişə nail olub. Həmçinin, bir il ərzində LTE şəbəkəsi üzərindən data istifadəsində 256% yüksəliş qeyd olunub. Son bir ildə "Azercell"in 1129 yeni LTE stansiyası quraşdırılıb. "Azercell" şəbəkəsində 4G/LTE traffiki ümumi data trafikin 46%-ni təşkil edir ki, bu da ötən ilin muvafiq dövrü ilə müqayisədə 26% artım deməkdir.

Avropanın "Systemics" şirkəti tərəfindən ölkə üzrə aparılan müstəqil bençmark testi nəticəsində Azərbaycanın bütün regionları üzrə "Azercell" sirkətinin daha ustün 4G/LTE xidməti göstərdiyi təsdiq olunub.

"Azercell" özünün 4G şəbəkəsini 100% genişləndirməklə paytaxt və regionlarda bütün əhali üçün sürətli mobil data istifadəsini əlçatımlı və rahat etməyi hədəfləyir. İstifadəçilərimizi ən sürətli mobil internetə alışdıraraq və şəbəkəmizi ən müasir səviyyəyə gətirərək biz artıq növbəti texnoloji mərhələyə keçidin hazır olduğunu bəyan edə bilərik. Bu yaxınlarda "Azercell"in ilk olaraq test rejimində təqdim etdiyi 5G şəbəkəsi bizim rəqəmsallaşma və gələcəyin bağlantılı cəmiyyəti üçün apardığımız təşəbbüslərin məntiqi nəticəsidir." - deyə "Azercell Telekom"un Şəbəkə Texnologiyaları Departamentinin direktoru Marat Həmidov bildirib.

Qeyd edək ki, bu ilin noyabr ayının 12-də ölkədə ilk olaraq 5G şəbəkəsini test rejimində təqdim edən "Azercell Telekom" ən yeni nəsl mobil rabitə texnologiyası üzrə araşdırmaları davam etdirərək gələcəkdə bu şəbəkənin tam olaraq təşkilini həyata keçirməyi planlaşdırır.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.





**Qoç** - Bu gün ulduzlar sizə hər şeydə yardım edəcəklər. Gününüzü nəyə həsr etsəniz, sizi uğur müşayiət edəcək. Sizin üçün çoxdan maraq kəsb edən adamla görüş təyin etmək olar: bu gün onun yanında ən yaxşı təəssüratlar oyadacaqsınız.



**Buğa** - Çox əlverişli gündür. Ondan ciddi, vacib və faydalı iş üçün istifadə etmək yaxşı olardı. Dostlarınızdan alacağınız maraqlı informasiya sizi maraqlı fikirlərə sövq edə bilər. Yaradıcılıq potensialı yüksəkdir.



**Əkizlər** - Bir qədər gözləmək lazımdır: yeni başlanğıclar, cəsur eksperimentlər və yaradıcıq axtarışları üçün əlverişli vaxt bir qədər sonra başlayacaq. Hələlik isə diqqətinizi darıxdırıcı, bununla belə, diqqət tələb edən cari işlərə yönəldin.



**Xərçəng** - Əgər peşə sahəsində uğura nail olmaq istəyirsinizsə, daha çox inad və qətiyyət nümayiş etdirin. Bu keyfiyyətlər olmadan lazım olan uğuru əldə etmək olmaz. Ciddi rəqabətdə iştirak etməli olacaqsınız.



**Şir** - Sizi çox çətin gün gözləyir. Yalnız öz gücünüzə arxalanmalısınız. Düzdür, köməkçiləriniz var, amma daim onlara təkan vermək, nəzarət etmək lazım gəlir. Səfərlər gözlədiyiniz kimi keçməsə, təəccüblənməyin.



**Qız** - Təhsillə məşğul olmaq olar. Sizi neyin cəlb etməsinin fərqi yoxdur - dəqiq elmlər, xarici dillər və ya musiqi savadı. Yeni münasibətlər zəngin və parlaq olacaq, amma davamlılığı gözlənilmir.



**Tərəzi** - Uğursuzluqlar vaxtı gəldi. Bu işləriniz gətirməyəcək. Bürcün nümayəndələri çətin vəziyyətlərə düşəcək, aşılmaz çətinliklərlə qarşılaşacaqlar. Özü də köməyə heç kim tələsməyəck.



**Əqrəb** - Bu gün diqqəti şəxsi işlərinizə yönəltmək kifayət qədər çətin olacaq: sizi tez-tez yayındıracaq və boş şeylərə görə təngə gətirəcəklər. Bir çox Əqrəblər çoxdandır əməkdaşlıq etdikləri insanlarla küsüşəcəklər.



**Oxatan** - Lazımsız əlaqələri kəsməyin, irəliləməyə mane olanlarla vidalaşmağın vaxtı çatıb. Bu gün belə qərarları qəbul etmək və həyata keçirmək başqa günlərlə müqayisədə daha asandır.



**Oğlaq** - Əvvəllər başladığınız işləri sakitcə başa çatdırmaq, son vaxtlar küsdüyünüz adamlarla münasibət qurmağa imkan verən əlverişli gündür. Ailədəki fikir ayrılıqlarına son qoymaq olar.



**Dolça** - Qəribə işdir: çaşqınlıq içərisindəsiniz və nə etmək lazım olduğunu bilmirsiniz. Bu vəziyyət sizin üçün diskomfort yaradır və çətin ki uzun sürə. Ehtiyatlı hərəkət etməyə çalışın, lüzumsuz risklərdən uzaq durun.



**Balıqlar** - Tənbəlliyə qalib gəlməyi bacaran və hərəkətə keçən adamlar böyük üstünlük əldə edəcəklər: əksər hallarda onların kiminləsə mübarizə, rəqabət aparmasına ehtiyac qalmayacaq.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Ən güclü zəlzələlərin baş verdiyi ölkələr...

**Hazırda demək olar ki, əksər ölkələr zəlzələlərdən silkələnir. "Milli.Az" 2019-cu ilin ən güclü zəlzələlərini təqdim edir.**

26 noyabr - Albaniyanın paytaxtı Tirana ətrafında (6,4 bal). 8 ölü, 150 yaralı. 8 noyabr - İranın şimal-qərbində (5,9 bal). 6 ölü, 529 yaralı. 29 və 31 oktyabr - Filippinin Mindan adası (6,6; 6,5 bal). 21 ölü, 432 yaralı. 26 sentyabr - İndoneziya sahilləri (6,5 bal). 30 ölü, 156 yaralı. 21 sentyabr Albaniya (5,6; 6 bal). 105 yaralı. 8 sentyabr Çinin Siçuan əyaləti (5,4 bal). 1 ölü, 63 yaralı. 2 avqust Sumatra adası (6,8 bal). 5 ölü, 4 yaralı. 27 iyul Filippin sahilləri (5,9 bal). 5 ölü, 12 yaralı. 14 iyul İndoneziya (7,3 bal). 6 ölü. 8 iyul İranın cənub-qərbi (5,7 bal). 1 ölü, 64 yaralı. 17 iyun Çinin Siçuan əyaləti (6 bal). 13 ölü, 199 yaralı. 26 may Perunun şimalı (8 bal). 2 ölü, 15 yaralı. 22 aprel Filippin (6,3 bal). 15 ölü. 17 mart İndoneziya (5,5 bal). 5 ölü, 30 yaralı. 6 yanvar İran-İraq sərhədi (5,7 bal). 75 yaralı.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.